RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 203 (9948) 23 sentyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Nyu Yorka səfər edib

## "John F.Kennedy" Beynəlxalq Hava Limanında qarşılanma



**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə işgüzar səfərə gedib.**

**AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Nyu York şəhərinin "John F.Kennedy" Beynəlxalq Hava Limanında rəsmi şəxslər qarşılayıblar.**

## Prezident İlham Əliyev Nyu Yorkda bir sıra görüşlər keçirib



Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt, "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker və "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb.

2

## Etibarlı tərəfdaş və dost

### Ruanda Prezidenti Pol Kaqamenin ölkəmizə səfəri ikitərəfli münasibətlərə təkan verəcək

Azərbaycan və Ruanda arasında diplomatik əlaqələr 2004-cü il mayın 28-də qurulub. Bu addım iki ölkə arasında münasibətlərin əsasını qoyub. Qeyd etmək lazımdır ki, uzun müddət ikitərəfli deyil, əsasən, çoxtərəfli platformalarda inkişaf edən əlaqələr son dönəmdə aktiv fazaya qədəm qoyub. Bakı ilə Kiqali arasında Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı dialoq üçün əsas platformalardır. Məhz bu təşkilatlar çərçivəsində Ruanda daim Azərbaycana dəstəyini ifadə edib. Bunun əyani sübutu Ruandanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılmasının lehinə səs verməsi olub. Bundan əlavə, Ruanda COVID-19 pandemiyası dövründə Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüsləri fəal şəkildə dəstəkləyib. Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ruanda Prezidenti Pol Kaqamenin görüşü iki ölkə arasında münasibətlərin artan əhəmiyyətini bir daha vurğulayıb. Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və investisiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. "Commonwealth" təşkilatı çərçivəsində əməkdaşlıq, birgə İşçi Qrupunun yaradılması tərəflərin əlaqələrinin inkişafı istiqamətində məqsədyönlü addımlarını təsdiqləyir.



7

## III Bakı Təhlükəsizlik Forumu keçirilib

Sentyabrın 21-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 90-a yaxın ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda III Bakı Təhlükəsizlik Forumu təşkil olunub.

Baku Security FORUM

4

## "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu"

Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə paytaxtda "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans keçirilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyi ərəfəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 22-də "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda "dəyirmi masa" formatında beynəlxalq konfrans keçirilib.

5

## Qlobal təhlükəsizliyin təminatında Azərbaycan öncül rol oynayır

Vaxtilə özü də münaqişədən, müharibədən əziyyət çəkən ölkə olaraq Azərbaycan dünyada daim sülhü təşviq edir, bu istiqamətdə atdığı addımları ilə qlobal təhlükəsizliyə mühüm töhfələr verir. Forum iştirakçılarına müraciətində bu məqama vurğu edən dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib: "Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə - Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir".

4



## I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu uğurlu əməkdaşlığa və ümumi rifaha möhkəm zəmin yaradacaq

Həyata keçirilən sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradıb. Elə bunun nəticəsidir ki, 2004-2024-cü illər ərzində investorlar iqtisadiyyatımıza 344,4 milyard dollar həcmində sərmayə yatırıblar. Xatırladaq ki, yatırılan sərmayənin böyük bir hissəsi - 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu həm də xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinə verdikləri dəyər kimi də qəbul edilir. Nəticədə bu gün ölkəmizdə minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına verilən mühüm töhfədir. Qürurlandırıcı faktdır ki, qazanılan etimad sayəsində əksər xarici şirkətlər bu gün də ölkəmizi özləri üçün təkrar investisiya yatırmaq üçün ən uyğun məkan olaraq seçirlər.




Əlverişli coğrafi mövqeydə yerləşən Azərbaycan bu gün sürətlə regional iqtisadi siyasətin strateji mərkəzinə çevrilir. Orta dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin işə düşməsi ilə bu həcmin daha da artacağına şübhə yoxdur. Ölkəmizdə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmiryolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir.

6

# Prezident İlham Əliyev Nyu Yorkda "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru ilə görüşüb



**Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management" şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Brüs Flətt 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğulayıb.

Brüs Flətt Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə görə təbriklərini çatdırıb və bunun bölgədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkan yaratdığını deyib.

Ölkəmizlə "Brookfield Asset Management" şirkəti arasında qurulmuş əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bunun əməkdaşlığımızın uzunmüddətli strateji inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayıb.

Söhbət zamanı Azərbaycanın bərpaolunan enerji sahəsindəki imkanları və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 1899-cu ildə əsası qoyulan və baş ofisi Kanadada yerləşən "Brookfield Asset Management" qlobal miqyasda alternativ investisiyaların idarə edilməsi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət infrastruktur, daşınmaz əmlak, bərpaolunan enerji, özəl kapital və kredit kimi əsas istiqamətlər üzrə investisiya portfellərini idarə edir. Hazırda "Brookfield"in idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından çoxdur. Şirkət Nyu York, London, Sidney, Dubay, San-Paulo, Mumbay və Şanxay da daxil olmaqla, dünyanın əsas maliyyə mərkəzlərində təmsil olunub.

# Prezident İlham Əliyevin "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu Yorkda "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayaraq, bu xüsusda "Neuberger Berman" şirkəti ilə tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2016-cı ildən etibarən bu şirkətlə səmərəli tərəfdaşlığının ölkəmizin maliyyə sektorunun inkişafına və beynəlxalq investisiya imkanlarının genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Corc Volker rəhbərlik etdiyi şirkətin qlobal maliyyə və investisiya fəaliyyəti barədə məlumat verərək, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün əhəmiyyətini vurğulayıb, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirib.

Qeyd edək ki, 1939-cu ildə Nyu Yorkda təsis olunmuş "Neuberger Berman" qlobal investisiya idarəetmə şirkətidir. Hazırda şirkət beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edir.

# "Blackstone" şirkətinin Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğu qeyd edilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu Yorkda "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Conatan Qrey Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını vurğulayıb. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu qeyd edib və ölkəmizdə formalaşmış əlverişli investisiya mühitini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında aparıcı maliyyə institutları ilə əməkdaşlığa böyük önəm verdiyini deyərək, ölkəmizdə sabitlik, şəffaflıq və davamlı inkişaf prinsipləri əsasında formalaşmış iqtisadi mühitin yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaratdığını vurğulayıb.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan "Blackstone" 1985-ci ildə Nyu Yorkda təsis olunub. Şirkət özəl kapital, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri, bərpaolunan enerji və hedc fondları üzrə investisiya portfellərini idarə edir. Hazırda "Blackstone"un idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından artıqdır. Baş ofisi Nyu Yorkda yerləşən şirkət London, Honkonq, Dubay, Sinqapur və Tokio da daxil olmaqla dünyanın 27 şəhərində fəaliyyət göstərir.

# "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda keçirilən beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu, heç də təsadüfi deyildir. Belə ki, bu il biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini və tarixi Zəfərimizin 5 illiyini qeyd edirik.

Ölkəmiz öz müstəqilliyini 1991-ci ildə bərpa etsə də, o dövrdə hökm sürən ictimai-siyasi vəziyyət, həmçinin Ermənistan Respublikasının hərbi təcavüzü səbəbindən milli Konstitusiyamızın qəbulu yalnız 1995-ci ildə mümkün olmuşdur. Müstəqilliyimizi qazanandan sonra 30 ilə yaxın bir dövrdə torpaqlarımızın əhəmiyyətli hissəsi Ermənistanın işğalı altında olmuşdur. Azərbaycan xalqının əzmkarlığı, silahlı qüvvələrimizin rəşadəti sayəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisinə şamil edilmişdir.

Tarixi zəfərimizdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzur bölgəsində geniş bərpa və quruculuq işlərinə başlanmış, minlərlə insan öz doğma yurdlarına qayıtmışdır. Baş vermiş bütün faciələrə baxmayaraq, Azərbaycan hər zaman sülh gündəliyinin tərəfdarı olmuş, bu istiqamətdəki səylərimiz cari ilin 8 avqust tarixində Vaşinqtonda sülh sazişinin paraflanması ilə nəticələnmişdir.

Hörmətli konfrans iştirakçıları!

Dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür. Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar. Sizə bu şərəfli missiyada uğurlar arzu edirəm.

Əminəm ki, hazırkı tədbir prokurorluq fəaliyyəti ilə bağlı qabaqcıl təcrübələrin mübadiləsi, ümumi çağırışların müəyyən edilməsi və onların birgə həlli yollarının müzakirəsi, qarşılıqlı əməkdaşlığın güclənməsi məqsədlərinə töhfə verəcəkdir.

Sizi Azərbaycanda bir daha salamlayır, konfransın işinə müvəffəqiyyətlər diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2025-ci il*

# "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakı Təhlükəsizlik Forumunun üçüncü iclasının açılışı münasibətilə təbrik edir və hər birinizi səmimi-qəlbdən salamlayıram.

Qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılmasında vacib rolu olan təhlükəsizlik və kəşfiyyat qurumlarını bir araya gətirən Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir.

Dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir. Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur. Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq.

Azərbaycan Respublikası müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib. Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə - Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Bildiyiniz kimi, 2025-ci il avqust ayının 8-də Vaşinqtonda ABŞ-nin şahidliyi ilə Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamə imzalanmışdır. Beləliklə, ölkələrimiz arasında uzun müddət davam edən münaqişəyə son qoyulması və sülh sazişinin imzalanması istiqamətində mühüm tarixi addım atılmışdır. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması təkcə bizim region üçün deyil, eləcə də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa üçün yeni əməkdaşlıq imkanları yaradacaqdır.

Beynəlxalq təhlükəsizlik problemlərinin qarşısının alınmasında və həllində xüsusi xidmət orqanlarının birgə fəaliyyət göstərməsi həlledici rola malikdir. Əminəm ki, bugünkü müzakirələr səmərəli olacaq və konfransda səsləndiriləcək təhlillər və tövsiyələr daha təhlükəsiz bir gələcəyin formalaşmasına əhəmiyyətli töhfələr verəcəkdir.

Keçən il Bakı Təhlükəsizlik Forumunun ənənəvi olaraq hər il təşkil edilməsi və davamlı fəaliyyət göstərməsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təklif iştirakçı ölkələr tərəfindən fəal şəkildə dəstəklənmişdir. Bununla əlaqədar olaraq ötən müddət ərzində Bakı Təhlükəsizlik Forumunun Təşkilat Komitəsinin və onun Katibliyinin təsis edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Hazırkı iclasda əldə olunmuş ümumi razılıq əsasında Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və ondan irəli gələn təşəbbüslərin qəbul olunması nəzərdə tutulur. Bütün bunlar forumun təsisatlanması istiqamətində atılmış mühüm addımlardır. Azərbaycan Təşkilat Komitəsinin işinin koordinasiyası funksiyasını öz üzərinə götürərək Bakı Təhlükəsizlik Forumuna öz dəstəyini verməyə davam edəcəkdir.

Hər birinizi bir daha ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2025-ci il*

# Malta Respublikasının Prezidenti zati-aliləri xanım Miriam Spiteri Debonoya

Hörmətli xanım Prezident!

Malta Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, bu il diplomatik əlaqələrin qurulmasının 30 illiyini qeyd edən Azərbaycan ilə Malta arasında dostluq münasibətlərinin inkişafı, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2025-ci il*

# "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Bakı Təhlükəsizlik Forumunun üçüncü iclasının açılışı münasibətilə təbrik edir və hər birinizi səmimi-qəlbdən salamlayıram.

Qlobal arenada kəskinləşən geosiyasi ziddiyyətlər fonunda beynəlxalq təhlükəsizlik sisteminin qorunub saxlanılmasında vacib rolu olan təhlükəsizlik və kəşfiyyat qurumlarını bir araya gətirən Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir.

Dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir. Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üz-üzə qoyur. Bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur. Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq.

Azərbaycan Respublikası müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib. Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə - Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Bildiyiniz kimi, 2025-ci il avqust ayının 8-də Vaşinqtonda ABŞ-nin şahidliyi ilə Azərbaycan ilə Ermənistan arasında Birgə Bəyannamə imzalanmışdır. Beləliklə, ölkələrimiz arasında uzun müddət davam edən münaqişəyə son qoyulması və sülh sazişinin imzalanması istiqamətində mühüm tarixi addım atılmışdır. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması təkcə bizim region üçün deyil, eləcə də Mərkəzi Asiya, Yaxın Şərq və Avropa üçün yeni əməkdaşlıq imkanları yaradacaqdır.

Beynəlxalq təhlükəsizlik problemlərinin qarşısının alınmasında və həllində xüsusi xidmət orqanlarının birgə fəaliyyət göstərməsi həlledici rola malikdir. Əminəm ki, bugünkü müzakirələr səmərəli olacaq və konfransda səsləndiriləcək təhlillər və tövsiyələr daha təhlükəsiz bir gələcəyin formalaşmasına əhəmiyyətli töhfələr verəcəkdir.

Keçən il Bakı Təhlükəsizlik Forumunun ənənəvi olaraq hər il təşkil edilməsi və davamlı fəaliyyət göstərməsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təklif iştirakçı ölkələr tərəfindən fəal şəkildə dəstəklənmişdir. Bununla əlaqədar olaraq ötən müddət ərzində Bakı Təhlükəsizlik Forumunun Təşkilat Komitəsinin və onun Katibliyinin təsis edilməsi üçün müvafiq tədbirlər görülmüşdür. Hazırkı iclasda əldə olunmuş ümumi razılıq əsasında Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və ondan irəli gələn təşəbbüslərin qəbul olunması nəzərdə tutulur. Bütün bunlar forumun təsisatlanması istiqamətində atılmış mühüm addımlardır. Azərbaycan Təşkilat Komitəsinin işinin koordinasiyası funksiyasını öz üzərinə götürərək Bakı Təhlükəsizlik Forumuna öz dəstəyini verməyə davam edəcəkdir.

Hər birinizi bir daha ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 sentyabr 2025-ci il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 274** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1050 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 343 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80, № 3, maddə 307, № 4, maddə 450, № 5 (II kitab), maddə 585, №7, maddə 902, № 9, maddələr 1048, 1063; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı"nın 43-cü hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 275** **Bakı şəhəri, 22 sentyabr 2025-ci il**

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 yanvar saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1209 (Cild I); 2024, № 3, maddə 308, № 6 (II kitab), maddə 732, № 9, maddə 1103, № 12 (II kitab), maddə 1450; 2025, № 3, maddə 295, № 4, maddə 600) 1.1-ci bəndində "2025-ci il 1 oktyabr" sözləri "2026-cı il 1 yanvar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları!

Sizi Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda səmimi-qəlbdən salamlayıram.

Azərbaycanda ilk dəfə keçirilən bu Forumun qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi, yeni tərəfdaşlıq əlaqələrinin qurulması, qabaqcıl ideyaların və layihələrin müzakirəsi, ölkəyə yeni investisiyaların cəlb olunması üçün mühüm platforma olacağına inamımı ifadə edirəm.

Müstəqilliyi qazandıqdan etibarən Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm vermiş, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atmışdır.

Azərbaycanda həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaratmışdır. Məhz bu səbəbdən 2004-2024-cü illər ərzində iqtisadiyyatımıza 344,4 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuş, bunun əhəmiyyətli hissəsi və ya 213,2 milyard ABŞ dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu, xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinin bariz göstəricisidir.

Hazırda Azərbaycanda minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına mühüm töhfədir. Əldə etdiyimiz etimad sayəsində əksər xarici şirkətlər bu gün də mənfəətlərini ölkə iqtisadiyyatına təkrar investisiya etməyi seçirlər.

Azərbaycan iqtisadiyyatı güclü və fundamental baza üzərində qurulmuşdur. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin Müqaviləsi" qlobal miqyasda nümunəvi əməkdaşlıq modeli kimi tarixə düşmüş, sonrakı illərdə Asiyadan Avropaya qədər uzanan iri transmilli layihələr və logistika şəbəkələrinin inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da güclənməsinə istiqamətləndirir.

Bu gün Azərbaycanda iqtisadi artım uzunmüddətli sabit trendə çevrilmişdir. 2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7% artmış və onun ümumi iqtisadiyyatda payı 68%-ə yüksəlmişdir. Qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artmışdır. Bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir.

Bütün bu nailiyyətlər ölkədə müasir istehsal infrastrukturunun qurulması ilə dəstəklənmişdir: hazırda bizdə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Burada 171 müəssisə qeydiyyata alınmış, onların 98-i artıq istehsal fəaliyyətinə başlamışdır. Sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılmış, burada 11 minə yaxın daimi iş yeri yaradılmışdır.

Qabaqcıl ideyaların tətbiqi, dövlət-özəl tərəfdaşlıq mexanizmləri və həyata keçirilən islahatlar nəticəsində özəl sektorun iqtisadiyyatda payı 81,4% səviyyəsində qorunmuşdur. İqtisadiyyatın davamlı inkişafı əhalinin rifahını yüksəltmiş və ölkənin maliyyə gücünü artırmışdır. 2025-ci ildə 2017-ci ilə nəzərən dövlət büdcəsinin gəlirləri 2,4 dəfə, strateji valyuta ehtiyatları 1,9 dəfə artmış, dövlətin xarici borcunun ümumi daxili məhsula nisbəti isə 6,5%-ə düşərək dünya üzrə ən aşağı göstəricilərdən birinə çevrilmişdir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi ölkəmizi regional iqtisadi siyasətin strateji mərkəzinə çevirir. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Gələcək illərdə, xüsusilə də Zəngəzur koridorunun işə düşməsi ilə bu göstəricinin daha da artması gözlənilir. Ölkədə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmir yolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir. Eyni zamanda xüsusi iqtisadi zonalar, müasir nəqliyyat və rəqəmsal infrastruktur istehsal, logistika, bərpaolunan enerji, rəqəmsal xidmətlər və yüksək dəyərli kənd təsərrüfatı üçün hazır platformalar təqdim edir.

Enerji siyasətimiz Azərbaycanın beynəlxalq iqtisadi mövqeyinin güclənməsində mühüm rol oynayır. Azərbaycan hazırda bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşıdır. Təbii qazla yanaşı, günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurun yaşıl enerji zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirir. Beləliklə, Azərbaycan həm bu günün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın yaşıl iqtisadiyyatını qurur.

Ölkədə qanunun aliliyinin təminatı, hökm sürən siyasi sabitlik və sərmayələrin qorunması iqtisadi siyasətimiz üçün fundamental amil rolunu oynayır və investorlar üçün uzunmüddətli etimad mühiti yaradır. Yaradılmış infrastruktur və hüquqi təminatlar əsasında Azərbaycan biznes layihələrini dəstəkləməyə, texnologiya, investisiya və təcrübə gətirən tərəfdaşlıqları irəli aparmağa tam hazırdır. Eyni zamanda dövlət-özəl tərəfdaşlıq mexanizmləri sərmayədarlara dayanıqlı layihələrə qoşulmaq imkanı verir.

Ənənəvi enerji sahəsindəki uğurlarımız bu gün rəqəmsal iqtisadiyyat və texnoloji transformasiya ilə tamamlanır. Bulud texnologiyalarının genişləndirilməsi, rəqəmsal məlumat infrastrukturunun inkişafı və innovativ həllərin iqtisadiyyatın əsas sahələrinə inteqrasiyası Azərbaycanın gələcəkdə yüksək texnologiyalar və süni intellekt sahəsində strateji mərkəz rolunu oynamaq üçün mövqelərini daha da möhkəmləndirir.

Azərbaycan yaradıcı təşəbbüsləri, iş adamlarına daha mənfəətli fəaliyyət imkanları təqdim edən layihələri daim dəstəkləyir. Hesab edirəm ki, Azərbaycanın təqdim etdiyi üstünlüklərdən faydalanmaqla tərəfdaşlarımız ölkəmizin dayanıqlı inkişafına, texnoloji tərəqqisinə və bütövlükdə regionun firavanlığına mühüm töhfələr verə bilər.

Bu gün keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu əməkdaşlıq və sərmayə cəlbinin yeni mərhələsi üçün başlanğıcdır. Bizim əsas məqsədimiz innovativ biznes ideyalarının reallaşdırılması və əlverişli işgüzar imkanların genişləndirilməsidir. Mən hamınızı kapital, texnologiya və ideyalarınızı Azərbaycana gətirməyə dəvət edirəm.

Əminəm ki, sizin ideya və təşəbbüslərinizin Azərbaycanda real layihələrdə əksini tapması uğurlu əməkdaşlığa və ümumi rifaha möhkəm zəmin yaradacaqdır.

Forumun işinə uğurlar, bütün iştirakçılara isə yeni səmərəli tərəfdaşlıqlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 sentyabr 2025-ci il*

# Bir sıra müəssisələrin Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda və 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 272** **Bakı şəhəri, 18 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 7.11-ci bəndinə və "Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının 4.1.3-cü yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu, Çaykənd Qızılbalıqartırma Zavodu, Kiçik Qızılağac Balıqartırma Təsərrüfatı, Tovuz Balıqartırma Təsərrüfatı və "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyəti ştat vahidləri və onlara məxsus əmlakla birlikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745 (Cild I); 2025, №2, maddə 195) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.10.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və həmin bölməyə aşağıdakı məzmunda 1.11-ci bənd əlavə edilsin:

"1.11. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Balıqçılıq və Akvakultura Mərkəzi"nin tabeliyindəki qurumlar:

1.11.1. Azərbaycan Təcrübəvi Dəniz Balıqartırma Zavodu;

1.11.2. Çaykənd Qızılbalıqartırma Zavodu;

1.11.3. Kiçik Qızılağac Balıqartırma Təsərrüfatı;

1.11.4. Tovuz Balıqartırma Təsərrüfatı;

1.11.5. "Xıllı balıq" Məhdud Məsuliyyətli Cəmiyyəti.";

2.2.3.3.1-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 862 (Cild I); 2024, № 9, maddə 1091) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın 1.1.19-cu, 1.1.21-ci, 1.1.23-cü, 1.1.24-cü və 1.1.25-ci yarımbəndləri ləğv edilsin.

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Qərardan irəli gələn məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# III Bakı Təhlükəsizlik Forumu keçirilib





**Sentyabrın 21-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 90-a yaxın ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda III Bakı Təhlükəsizlik Forumu təşkil olunub.**

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbir açıq elan edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun iştirakçılarına müraciəti oxunub, ardınca konfransın mövzusu ilə bağlı videomaterial nümayiş etdirilib.

Açılış nitqi ilə çıxış edən DTX-nin rəisi general-polkovnik Əli Nağıyev Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan və ənənəvi olaraq hər il təşkil edilən forumun iştirakçılarını növbəti dəfə Bakı şəhərində salamlamaqdan məmnun olduğunu bildirib,



dünyanın müxtəlif bölgələrindən olan ölkələrin təhlükəsizlik orqanlarını dəyirmi masa ətrafında birləşdirən və iştirakçı dövlətlərin sayının ildən-ilə artması ilə müşayiət olunan bu tədbirin beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi, məlumat və qarşılıqlı fikir mübadilələrinin aparılması, qlobal təhlükəsizliyə yönələn müasir çağırışlarla mübarizədə səylərin birləşdirilməsi baxımından önəmli platformaya çevrildiyini vurğulayıb, forumun keçirilməsində göstərdiyi hərtərəfli dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü ifadə edib.

Xidmət rəisi beynəlxalq təhlükəsizlik sisteminə təhdidlər sırasında yer alan terror hücumlarının, silahlı münaqişələrin, texnogen qəzaların və ekoloji fəlakətlərin qarşısının alınmasında xüsusi xidmət orqanlarının vacib rol oynadığını, sadalanan mənfi təzahürlərin nəticəsində yaranan humanitar böhranlar zamanı kompleks yanaşmanın sərgilənməsinin, ölkələrin təhlükəsizlik qurumlarının və aidiyyəti təsisatlarının koordinasiyalı fəaliyyət göstərməsinin zəruriliyini diqqətə çatdırıb.

Daha sonra tədbir müvafiq ölkələrin xüsusi xidmət orqanlarının nümayəndələrinin çıxışları ilə davam edib, budəfəki Bakı Təhlükəsizlik Forumunun da beynəlxalq və regional təhlükəsizliyin təminatı üçün birgə səylərin səfərbər olunmasına, xüsusi xidmət orqanları arasında əməliyyat diplomatiyasının, qarşılıqlı fəaliyyətin, ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olunub.

Tədbir nümayəndə heyətlərinin rəhbərləri tərəfindən Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Əsasnaməsinin qəbul edilməsi ilə başa çatıb.

# Qlobal təhlükəsizliyin təminatında Azərbaycan öncül rol oynayır

**Hazırda dünyada geosiyasi güclərin müxtəlif maraqlar uğrunda apardıqları münaqişələr, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik və tərəqqi xüsusi diqqət çəkir. Beynəlxalq arenada təhlükəsizlik adası kimi tanınan ölkəmiz nizamı pozulan dünyaya Qarabağ zəfəri ilə həm də ədalətin təmini, sülh və sabitliyin bərqərar olması ilə bağlı mükəmməl örnək göstərib.**



Torpaqlarının işğalı dövründə belə, münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinin tərəfdarı olan Azərbaycanın yürütdüyü düşünülmüş və uzaqgörən siyasət son beş ildir bölgədə dayanıqlı sülh üçün mühüm zəmin formalaşdırıb. Avqustun 8-də Vaşinqtonda sülh sazişi mətninin paraflanması, razılaşmalar əldə edilməsi təkcə Cənubi Qafqaz regionu deyil, daha geniş coğrafiyada gələcək əməkdaşlığa nail olunması baxımından mühüm əhəmiyyət daşıyır. Bütün sahələrdə sürətli inkişafa, enerji, nəqliyyat qovşağı kimi strateji mövqeyə sahib Azərbaycanın qlobal miqyaslı problemlərin həll edildiyi platformaya çevrilməsi də təəccüblü deyil. Bu gün nəinki paytaxtımızda, eləcə də cəmi beş il əvvələ qədər işğal altında olan Qarabağ və Şərqi Zəngəzurda beynəlxalq əhəmiyyətli konfranslar, forumlar keçirilir, dünyanın dörd bir yanından gələn ali qonaqlar qlobal məsələləri, bəşəriyyətin gələcək çağırışlarını müzakirə edirlər.

Bu baxımdan Bakı Təhlükəsizlik Forumu da təhlükəsizliklə bağlı qlobal problemlərin həlli platforması olaraq vacib əhəmiyyət daşıyır. Sentyabrın 21-də keçirilən sözügedən forumun üçüncü iclasının iştirakçılarına müraciətində Prezident İlham Əliyev vurğulayıb ki, dünya sürətlə dəyişir və hər gün yeni çağırışlar, yeni təhdidlər özünü büruzə verir: "Müxtəlif bölgələrdə silahlı toqquşmaların baş verməsi humanitar böhranlara, texnogen qəzalara, ekoloji fəlakətlərə zəmin yaradır. Eyni zamanda beynəlxalq müstəvidə münaqişələrin alovlanması, terrorçu təşkilatların yenidən fəallaşması, eləcə də kibertəhdidlərin artması müşahidə olunur. Bütün bunlar dövlətləri qlobal xarakter daşıyan təhdidlərlə üzüzə qoyur".

Dövlətimizin başçısı əlavə edib ki, bu kontekstdə dini ekstremizm, separatçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya və silah qaçaqmalçılığı kimi hüquqazidd əməllərin beynəlxalq təhlükəsizlik sistemini sarsıtması ciddi narahatlıq doğurur: "Şübhəsiz, müasir dövrün bu cür problemlərinin həlli yeni yanaşmaların, yeni vasitələrin tətbiqini, ən əsası isə ölkələrin birgə səylərini və sıx əməkdaşlığını tələb edir. Bu baxımdan Bakı Təhlükəsizlik Forumunun qlobal və regional təhlükəsizliyin ən aktual məsələləri barədə açıq və konstruktiv fikir mübadiləsinin aparılması üçün faydalı platformaya çevrilməsini görməkdən məmnunluq duyuruq".

## Unikal formatlı beynəlxalq tədbir

I Bakı Təhlükəsizlik Forumu Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2023-cü il may ayının 3-də təşkil olunub. Müxtəlif ölkələrinin kəşfiyyat və təhlükəsizlik orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin qatıldığı forum çərçivəsində plenar iclasla yanaşı, ikitərəfli və çoxtərəfli görüşlər keçirilib. "Proksi şəbəkələrin destruktiv fəaliyyətinə qarşı birgə mübarizə" mövzusunda keçirilmiş iclas Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub. İştirakçılar tərəfindən tədbirə böyük marağın göstərilməsi əsas götürülərək, ötən il sentyabrın 15-də "Qlobal nəqliyyat şəbəkələrinin təhlükəsizliyinə yönələn müasir çağırışlar" mövzusunda II Bakı Təhlükəsizlik Forumu təşkil edilib. Forumun mövzusu ilə bağlı iştirakçı dövlətlərin xüsusi xidmət orqanlarını təmsil edən nümayəndələr tərəfindən çıxışlar edilib, həmçinin ikitərəfli və çoxtərəfli görüşlər keçirilib.

Bu il sentyabrın 21-də keçirilən III Bakı Təhlükəsizlik Forumu "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların, eləcə də qlobal xarakterli texnogen qəza və ekoloji fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyətinin rolu" mövzusuna həsr olunub.

Prezident İlham Əliyevin yuxarıda sözügedən müraciətində tədbirin mühüm əhəmiyyətindən bəhs edilərək bildirilib ki, Bakı Təhlükəsizlik Forumu qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir: "Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən çoxsaylı xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması forumun qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir. Foruma olan marağın ildən-ilə artması müzakirəyə çıxarılan mövzuların vacibliyini əyani şəkildə əks etdirir".

Ötən il bu forumun ənənəvi olaraq hər il təşkil edilməsi və davamlı fəaliyyət göstərməsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş təklif iştirakçı ölkələr tərəfindən fəal şəkildə dəstəklənib. Bununla əlaqədar olaraq ötən müddət ərzində Bakı Təhlükəsizlik Forumunun Təşkilat Komitəsinin və onun katibliyinin təsis edilməsi üçün müvafiq tədbirlər görülüb. Prezident müraciətində məlumat verib ki, hazırkı iclasda əldə olunmuş ümumi razılıq əsasında Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsinin və ondan irəli gələn təşəbbüslərin qəbul olunması nəzərdə tutulur.

## İlham ƏLİYEV: "Sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür"

Vaxtilə özü də münaqişədən, müharibədən əziyyət çəkən ölkə olaraq Azərbaycan dünyada daim sülhü təşviq edir, bu istiqamətdə atdığı addımları ilə qlobal təhlükəsizliyə mühüm töhfələr verir. Forum iştirakçılarına müraciətində bu məqama vurğu edən dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan müstəqillik qazandığı ilk gündən etibarən bütün sahələrdə beynəlxalq əməkdaşlığın gücləndirilməsini daim dəstəkləyib: "Biz inanırıq ki, sabitliyə və firavanlığa yalnız dialoq və tərəfdaşlıq yolu ilə nail olmaq mümkündür. Azərbaycan yerləşdiyi bölgədə - Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsi üçün konstruktiv addımlar atır. Qarşıya qoyduğumuz əsas hədəflərdən biri regionda qarşılıqlı inama, təhlükəsizliyə və praqmatizmə əsaslanan yeni əməkdaşlıq formatının qurulmasıdır. Hesab edirik ki, bu istiqamətdə yürüdülən məqsədyönlü fəaliyyət gələcəkdə qonşu ölkələr arasında tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir".

Dünyada terrorçuluqla mübarizədə öndə gedən ölkələrdən olan Azərbaycan müharibələrdən, təbii fəlakətlərdən və digər bu kimi qlobal miqyaslı problemlərdən əziyyət çəkən insanlara daim maddi kömək edir, dayaq-dəstək durur. Təkcə pandemiya dövründə Azərbaycan 100-ə yaxın ölkəyə humanitar kömək edib. Həmin çətin dövrdə Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib.

Bundan əlavə, 2023-cü il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələ zamanı fəlakətin aradan qaldırılması üçün qardaş ölkəyə ilk beynəlxalq yardımı da məhz Azərbaycan yola saldı. Dağıdıcı zəlzələnin fəsadlarının aradan qaldırılması üçün dövlətimiz qardaş ölkəyə hər cür dəstək göstərdi. Dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərən Azərbaycan Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Ukrayna xalqına da mütəmadi olaraq humanitar yardım göndərir.

Bu cür nümunələrin sayını xeyli uzatmaq olar. Onu da qeyd edək ki, ölkəmiz ədalətli yeni dünya nizamının qurulması istiqamətində də qlobal səylər göstərir. Neokolonializmə qarşı fəal mübarizə aparan Azərbaycan müasir dövrdə də müstəmləkə siyasəti həyata keçirən ölkələri ifşa edir.

Təbii ki, bütün bu beynəlxalq miqyaslı uğurlu fəaliyyətin təməlində ölkəmizin daxilindəki sabitlik, təhlükəsizlik, əmin-amanlıq dayanır. Xalq-iqtidar birliyinin vəhdətindən güc alan dövlətimizin yürütdüyü balanslaşdırılmış və ədalətə söykənən siyasət Azərbaycanı beynəlxalq arenada söz sahibi, etimad edilən, güvənilən və qlobal problemlərin həllinə töhfə verən qüdrətli ölkəyə çevirib.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Azərbaycan təhlükəsizliyin koordinasiya olunduğu strateji arenaya çevrilib"

**Bu gün Azərbaycan çoxsaylı beynəlxalq tədbirin ev sahibinə çevrilib. Bu, Azərbaycanın imici, müstəqil daxili və xarici siyasətinin təzahürüdür.**



Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, məhz bu baxımdan dünya ölkələrinin kəşfiyyat və əks-kəşfiyyat, xüsusi xidmət orqanlarının iştirak etdiyi Bakı Təhlükəsizlik Forumunun davam etdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu konfrans son illər Azərbaycanın təhlükəsizlik sahəsində əldə etdiyi nailiyyətlərinin, beynəlxalq əməkdaşlıq platformasına çevrilməsinin göstəricisidir. "Bakı həm regional dövlətlər, həm də qlobal güclər arasında etimadın qurulması üçün görüş yeri rolunu oynayır. Bu gün dünyada düzən dəyişib. Dini ekstremizm, mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya, separatizm, silah qaçaqmalçılığı - çoxsaylı hüquqazidd əməllər təhlükəsizlik sisteminin sarsıdılmasına ciddi narahatlıq yaradır. Təəssüf doğuran məsələ odur ki, beynəlxalq hüquq tam şəkildə pozulub, güc onları üstələyir. Bakıda keçirilən konfrans regional sabitlik, sərhəd təhlükəsizliyi, enerji, nəqliyyat dəhlizlərinin qorunması, terrorizmə, kibercinayətkarlığa qarşı mübarizə, aktual məsələlərin müzakirəsinə imkan yaradır və gələcəkdə koordinasiyalı şəkildə təhdidlərin qarşısının alınmasında mühüm rol oynayacaq", - deyə deputat əlavə edib.

A.Nağıyev həmçinin qeyd edib ki, Azərbaycan təkcə enerji və nəqliyyat mərkəzi deyil, həm də təhlükəsizliyin koordinasiya olunduğu strateji arenadır: "Bu da, təbii ki, Dövlət Təhlükəsizlik Xidmətinin, Xarici Kəşfiyyat sisteminin, eyni zamanda hüquq-mühafizə orqanlarının və digər aidiyyəti qurumların birgə zəhməti, Ali Baş Komandan İlham Əliyevin tədbirlərinin nəticəsidir. Prezidentin forumun iştirakçılarına müraciətində Azərbaycanın təhlükəsizliyin gündəliyində aktiv mövqedə olduğu, beynəlxalq əməkdaşlığa açıq olduğu bir daha aydın göründü. Sülh, qarşılıqlı etimad və əməkdaşlıq prinsiplərinin ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini və xarici siyasət xəttinin əsasını təşkil etdiyini nümayiş etdirdi".

Komitə sədri xatırladıb ki, Prezident müraciətində Vaşinqton görüşünü misal gətirərək, regionda yeni reallıqlar fonunda Azərbaycanın təşəbbüslərinin dəstəklənməsinin sabitliyə və inkişafa gətirəcəyini bir daha qeyd edib: "Mühüm mesajlardan biri odur ki, Azərbaycan yalnız öz təhlükəsizliyi deyil, həm regional, həm də beynəlxalq təhlükəsizliyi gücləndirmək niyyətindədir. Bu konfransda aparılan müzakirələrin, həmçinin qəbul olunan qərarların da əsas istiqaməti budur. Cənubi Qafqazda əmin-amanlığın tam təmin olunması tək bizim region üçün deyil, Mərkəzi Asiya, Yaxın Şərq, Avropa üçün də yeni əməkdaşlıq imkanları yaradacaq. Bir sözlə, Bakı Təhlükəsizlik Konfransı mühüm əhəmiyyətə malik olmaqla gələcəkdə də davam etdiriləcək. Bununla əlaqəli Prezidentin tapşırıqlarına uyğun olaraq konfransın katibliyi və digər icra orqanları yaradılıb. Düşünürəm ki, çox yaxın zamanda bunun müsbət nəticələrini görəcəyik".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu"

**Azərbaycan Prokurorluğunun təşkilatçılığı ilə paytaxtda "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans keçirilib.**





"Konstitusiya və Suverenlik İli" çərçivəsində, həmçinin, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyi ərəfəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Bakıda Heydər Əliyev Mərkəzində sentyabrın 22-də "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda "dəyirmi masa" formatında beynəlxalq konfrans keçirilib.

Konfransda Uqanda, Laos, Tanzaniya, Keniyanın prokurorluq qurumlarının rəhbərləri və Türkiyə Baş Prokurorluğunun nümayəndələri, habelə Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və digər prokurorluq əməkdaşları iştirak edib.

Konfransdan əvvəl iştirakçılar Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. Eyni zamanda Şəhidlər xiyabanı ziyarət olunub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə çiçəklər düzülüb.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakçılara müraciəti Baş prokuror Kamran Əliyev tərəfindən səsləndirilib.

Daha sonra isə iştirakçılar Azərbaycanda prokurorluq orqanlarının yaranma tarixindən müasir dövrədək keçdiyi inkişaf mərhələlərini, ölkəmizdə qanunun aliliyinin təmin olunması və ədalətin bərqərar edilməsində oynadığı mühüm rolu əhatəli şəkildə əks etdirən, Azərbaycan Prokurorluğunun peşə bayramı və 107 illiyinə həsr olunmuş videoçarxa baxıblar.

Konfransda çıxış edən baş prokuror Kamran Əliyev Ermənistanın Azərbaycanın suveren ərazilərini işğal etməsi nəticəsində minlərlə insanın həlak olduğunu, mülkiyyətə, iqtisadiyyata, ətraf mühitə, tarix-mədəniyyət abidələrinə külli miqdarda ziyan dəydiyini iştirakçıların diqqətinə çatdırıb.

Baş prokuror, həmçinin xatırladıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi qələbə qazandı. Bundan başqa, 2023-cü il sentyabrın 19-dan 20-dək separatçıların nəzarətində olan Azərbaycanın Qarabağ bölgəsində lokal xarakterli antiterror əməliyyatı apararaq, 30 ilə yaxın işğal altında olan əraziləri azad etdi. Azərbaycanın suverenliyi tam bərpa olundu, Konstitusiya bütün ölkə ərazisində bərqərar oldu.

Baş prokuror əlavə edib ki, suveren ərazilərimiz işğaldan azad edildikdən dərhal sonra Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəal iştirakı ilə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanılıb. "Ağıllı" kənd və şəhərlər salındı, yeni iş yerləri, istehsalat, təhsil müəssisələri yaradıldı, o cümlədən Xankəndidə Qarabağ Universitetinin əsası qoyuldu.

Xatırladılıb ki, Azərbaycan hətta işğal zamanı da sülh yolu ilə nizamlanmaya nail olmaq üçün səylər göstərib; BMT-nin Azərbaycan torpaqlarının işğalını tanıyan və onların qeyd-şərtsiz azad edilməsini tələb edən dörd qətnaməsinə baxmayaraq, Ermənistan işğal etdiyi torpaqları qaytarmayıb. "Azərbaycan həmişə olduğu kimi, sülhün tərəfdarı olaraq qalır. Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması bunun bariz nümunəsidir. Bu sənəd iki dövlət arasında münasibətlərdə yeni səhifə olmaqla yanaşı, həm də Cənubi Qafqazda yenidən sülhün, təhlükəsizliyin və iqtisadi inkişafın davamlılığının təmin edilməsində tarixi dönüş nöqtəsidir", - baş prokuror vurğulayıb.

Bundan başqa, vurğulanıb ki, yeni geosiyasi reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması strateji əhəmiyyətli mövzu olaraq qalır. Bu layihə Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsini təmin edəcək, regionun nəqliyyat xəritəsini dəyişdirəcək, iqtisadi və siyasi inteqrasiyaya mühüm töhfə verəcək.




Sözügedən konfransda çıxışı zamanı baş prokuror onu da qeyd edib ki, Azərbaycan Prokurorluğu yüz ildən artıq bir tarixə malikdir. Çətin və mürəkkəb sınaqlarla zəngin bu şərəfli və məsuliyyətli tarixi yolda prokurorluq institutu bir neçə inkişaf mərhələsindən keçib.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlı olan Müstəqil Azərbaycanın ilk Konstitusiyası milli prokurorluq orqanlarının dövlətin və cəmiyyətin həyatında yeri və roluna da yeni baxış gətirib.

Qeyd edilib ki, Konstitusiya və sahəvi qanunlarla prokurorluq dövlətin və cəmiyyətin mənafeyini müdafiə edən ali orqan kimi müəyyən edilib. "Əminliklə deyə bilərik ki, Prokurorluğun Azərbaycan Konstitusiyasında müəyyən edilmiş statusu qanunun aliliyinin təmin olunması, insan və vətəndaş hüquqlarının müdafiəsi, dövlətin və cəmiyyətin maraqlarının qorunması sahəsində müstəqil və obyektiv fəaliyyət göstərməsinə təminat verir. Prokurorluq institutu həm hüquqi dövlətin möhkəmlənməsinə, həm də cəmiyyətimizin demokratik inkişafına mühüm xidmət göstərir. İnanıram ki, bu konfrans qarşılıqlı əlaqələrimizin daha da inkişaf etdirilməsinə xidmət edəcək", - deyə baş prokuror vurğulayıb.

Keniya Respublikasının Dövlət Prokurorluğunun direktoru Renson Mulele İnqonqa çıxışı zamanı vurğulayıb ki, bu gün Azərbaycan və Keniyanı birləşdirən ortaq dəyərlər ədalət, hüququn aliliyi və insan hüquqlarına hörmətdir. Çıxışçı vuruğulayıb ki, 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş bu Konstitusiya Azərbaycanın suverenliyinin, birliyinin və hüququn aliliyi əsasında demokratik dövlət qurmaq əzm və iradəsinin canlı ifadəsidir: "O, bərabərlik, insan ləyaqəti və sosial ədalət prinsiplərini təsbit edir və bununla da hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edildiyi möhkəm bünövrə yaradır. Konstitusiyanın ən mühüm xüsusiyyətlərindən biri dövlət hakimiyyətinin mənbəyi kimi xalqı tanımasıdır. Bu fundamental prinsip idarəetmənin xalqın iradəsindən qaynaqlandığını və onların rifahı naminə həyata keçirildiyini təmin edir. Prokurorlar olaraq bizim vəzifəmiz bu hüquqların yalnız mətnlərdə qalmamasını, vətəndaşların gündəlik həyatında real şəkildə hiss olunmasını təmin etməkdir. Hər bir cinayət işində təqsirsizlik prezumpsiyasını qorumaq, ədalətli məhkəmə təminatını və qurbanların ləyaqətini müdafiə etmək məsuliyyətimizdir".

Laos Xalq Demokratik Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Saysana Kotputan isə qeyd edib ki, Bakıda keçirilən beynəlxalq konfrans əməkdaşlığın genişlənməsi üçün yeni imkanlar açır. Bu elə bir platformadır ki, burada öz təcrübəmizi bölüşə bilərik. O öz ölkəsində Ali Xalq Prokurorluğunun fəaliyyətindən bəhs edib.

Bildirib ki, Laosda Konstitusiya 1992-ci ildə qəbul olunub və mühüm milli sənədləri özündə əks etdirir: "Laosun Ali Xalq Prokurorluğu Konstitusiyada qanunların düzgün icrasına nəzarət edən, təqsirləndirilən şəxslərin məhkəməyə verilməsi səlahiyyətinə malik olan orqan kimi təsbit edilib. Ali Xalq Prokurorluğu Konstitusiya ilə verilən səlahiyyətləri lazımı şəkildə həyata keçirir. Biz bu səlahiyyətləri layiqli formada xalq qarşısında icra edirik. Vətəndaşların hüquqlarının təşviqinə, xüsusilə, ədliyyə sektorunda böyük önəm verilir. Bu hüquqlar bir sıra qanunlarda aydın şəkildə təsbit edilib. Laos Ali Xalq Prokurorluğu vətəndaşların hüquqlarını təmin edən, xarici müdaxilə olmadan ittiham orqanı kimi öz rolunu icra etməkdədir. Öz vəzifələrini icra edərkən bütün səviyyələrdə xalq prokurorları qanuna əməl etməlidir. Onlar bunu gündəlik fəaliyyətində vacib amil hesab edirlər. Təqsirləndirilən şəxslərin hüquqlarına Xalq Prokurorluğu nəzarət edir. Biz öz ölkəmizdə bununla bağlı müvafiq mexanizmləri yaratmışıq. İctimaiyyət fikirlərini "Qaynar xətt" vasitəsilə bildirə bilər. Prokurorluğun müstəqilliyini qorumaq məqsədilə güclü daxili nəzarət mexanizmi də mövcuddur. Laos Ali Xalq Prokurorluğu hüququn aliliyini möhkəmləndirmək məsuliyyətini öz üzərində daşıyır".

Türkiyə Respublikasının Ali Məhkəməsinin prokuroru Tayfun Gün Türkiyədə konstitusiya prosesinin müxtəlif mərhələləri barədə məlumat verib. O, 1921-ci il Konstitusiyasında prokurorluq institutuna yer verilmədiyini, lakin sonrakı konstitusiyalarda məhkəmələrin müstəqilliyi, hakim və prokurorların təminatı ilə bağlı müddəaların təsbit olunduğunu diqqətə çatdırıb. Tayfun Gün qeyd edib ki, prokurorluq dövlətin suverenliyinin qorunmasında, ictimai qaydanın təmin olunmasında və cinayətlərin qarşısının alınmasında mühüm institut kimi çıxış edir. Onun sözlərinə görə, prokurorlar istintaq mərhələsində araşdırma aparmaqla, məhkəmə mərhələsində isə dövlət ittihamını müdafiə etməklə ədalətin bərqərar olunmasına xidmət edirlər.

Tanzaniya Birləşmiş Respublikasının Dövlət prokurorluğunun direktoru Silvester Antoni Mvakitalu qeyd edib ki, qanunun aliliyinin qorunmasında prokurorluq orqanlarının səmərəli fəaliyyəti üçün milli və beynəlxalq qurumlar arası əməkdaşlıq zəruridir: "Prokurorluq orqanları arasında əməkdaşlıq təcrübə mübadiləsi və birgə təlimlər vasitəsilə bilik mübadiləsi yolu ilə fəaliyyətin təkmilləşdirilməsində mühüm vasitədir. Ölkəm adından Tanzaniya və Azərbaycan Respublikasının prokurorluq orqanları arasında Anlaşma Memorandumunun imzalanacağına sevinirəm. Bu memorandumu iki prokurorluq orqanı arasında uzunmüddətli və davamlı əməkdaşlıq çərçivəsini formalaşdıracaq mühüm sənəd olacaqdır".

Uqanda Respublikasının Dövlət Prokurorluğunun direktoru Odumbi Ceyms Over vurğulayıb ki, bugünkü dəyirmi masa ölkələrimizin prokurorluq institutlarını birləşdirən ortaq dəyərlərin nümayişidir. Konstitusiya çərçivələrimizlə bağlı fikir mübadiləsi etməklə prokurorluğun müstəqilliyinin müxtəlif istiqamətlərdə necə möhkəmləndirilə biləcəyi barədə anlayışımızı dərinləşdirə, konstitusiyanın inkişafı və qanunun aliliyi ilə bağlı dəyərli perspektivlərə töhfə verə bilərik.

"Bu dialoq bizə həm də birgə araşdırmalar və yaranan təhdidlər üzrə bilik mübadiləsi aparmaq və ya beynəlxalq forumlarda prokurorluq standartlarının uyğunlaşdırılması vasitəsilə praktiki əməkdaşlığı genişləndirmək imkanı verir. Qarşılaşdığımız çağırışlar qlobal xarakter daşıyır, korrupsiya, mütəşəkkil cinayətkarlıq və demokratik təsisatlar üçün təhlükələr sərhədləri aşır. Beləliklə, biz bu görüşdən konstitusiya mandatlarımızın xalqlarımızın suverenliyini qorumaqla bu çağırışlara necə uyğunlaşa biləcəyini müzakirə etmək üçün platforma kimi istifadə edə bilərik. Mən sizin hamınızla səmərəli fikir mübadiləsi aparmaq, təcrübələrinizdən öyrənmək və öz təcrübəmizi daha çox bölüşmək üçün can atıram. Bu müzakirələr təkcə bizim müvafiq institutlarımızı gücləndirməyəcək, həm də ədalətin qlobal çərçivəsinə töhfə verəcək. Bu qeydlərlə bir daha azərbaycanlı həmkarlarımıza tərəfdaşlığa və bu nəcib işlə bağlı göstərilən fədakarlığa görə bütün iştirakçılara dərin minnətdarlığımı bildirirəm", - deyə Odumbi Ceyms Over fikirlərinə yekun vurub.

Çıxışlardan sonra konfrans iştirakçıları mövzu ətrafında geniş və səmərəli müzakirələr aparıblar.

Fikir mübadiləsi zamanı prokurorluq orqanlarının konstitusion statusunun möhkəmləndirilməsinin, onların fəaliyyətinin şəffaf, effektiv və hüquqi dövlət prinsiplərinə uyğun təşkil olunmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Həmçinin beynəlxalq təcrübə və əməkdaşlıq nümunələri müzakirəyə çıxarılaraq, ölkəmizdə prokurorluq fəaliyyətinin inkişaf etdirilməsi, hüquq mühafizə sisteminin təkmilləşdirilməsi və ədalətin daha da möhkəmləndirilməsi istiqamətində perspektivlər müəyyən edilib.

# Ermənistan vətəndaşlarının məhkəməsində Xocalı soyqırımı, Qarakənd faciəsi və digər cinayətlərlə bağlı sənədlər elan edilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası sentyabrın 22-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın vəkili vəsatətlə çıxış edərək bildirib ki, məhkəmədə elan olunan sənədlərin çoxluğunu nəzərə alaraq, sübutların qismən tədqiqi həyata keçirilsin. Əgər hansısa epizod təqsirləndirilən şəxsin və müdafiəçinin marağında olarsa, o zaman məhkəməyə müraciət edilsin və həmin epizoda dair sübutlar tədqiq olunsun.

Təqsirləndirilən şəxs Arayik Harutyunyan vəsatətlə razı olduğunu, digər müdafiəçilər və təqsirləndirilən şəxslər, dövlət ittihamçıları, zərərçəkmiş şəxslər və onların nümayəndələri də etiraz etmədiklərini bildiriblər.

Hakim Zeynal Ağayev vəsatətin məhkəmə tərəfindən təmin edildiyini diqqətə çatdırıb.

Sonra təqsirləndirilən şəxs Bako Sahakyanın vəkili çıxış edərək, müdafiə etdiyi tərəfin ifadələri ilə tanış olmaq üçün həmin sənədlərin surətlərinin təqdim olunmasını istəyib.

Hakim bildirib ki, həmin sənədləri məhkəmə iclas katibi ilə əlaqə saxlayıb götürə bilərlər.

Məhkəmə prosesi sənədlərin tədqiqi ilə davam etdirilib. Bildirilib ki, elan ediləcək sənədlər epizodlar üzrə tədqiq olunacaq.

1991-ci il avqustun 23-də Əsgəran rayonunun Cəmilli kəndində "UAZ" markalı avtomobilin atəşə tutulması faktı üzrə sənədin tədqiqi zamanı bildirilib ki, içərisində çoxsaylı sərnişin olan "UAZ" markalı avtomobilin ermənilər tərəfindən avtomat silahlardan atəşə tutulması nəticəsində N.F.Salahov, V.İ.Sadıxov və M.S.Abdullayeva həlak olub, çoxlu sayda sərnişin yaralanıb.

Digər cinayət işi Ermənistan ordusu tərəfindən 1992-ci ilin fevralında Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin iri və kiçikçaplı silahlardan intensiv atəşə tutulması, ağır texnikalardan istifadə etməklə hər iki kəndə hücumla bağlı olub. Bu hadisələr nəticəsində Malıbəyli kənd sakinlərindən çoxlu sayda şəxs öldürülüb, bir neçə nəfər itkin düşüb, Quşçular kəndində isə bir neçə nəfər öldürülüb, çoxlu sayda şəxs isə girov götürülüb.

Daha bir cinayət işi - 1991-ci il sentyabrın 8-də Xocavənd rayonunda "LAZ" markalı avtobusun atəşə tutulması faktı üzrə sənəd tədqiq olunarkən bildirilib ki, Kiş kəndinin fermasının yaxınlığında avtomat silahlarla silahlanmış ermənilər tərəfindən avtobusa açılan atəş nəticəsində bir neçə nəfər hadisə yerində ölüb, onlarla şəxs yaralanıb.

Digər sənəd 1991-ci il noyabrın 4-5-də Qazax rayonunun Xeyrimli kəndinin silahlılar tərəfindən müxtəlif növ silahlardan atəşə tutulması ilə bağlı olub. Hadisə nəticəsində həmin kənd sakinlərindən çoxlu sayda şəxs həlak olub və müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Təqsirləndirilən şəxs David Manukyan söz alaraq - "Ermənistan Respublikasının vətəndaşı Nikol Vova oğlu Paşinyanın (Baş nazir Nikol Paşinyan nəzərdə tutulur - red.) şahid qismində çağırılmasını, yaxud videokonfrans vasitəsilə məhkəmə prosesinə qoşulmasını" məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs David Babayan "ATƏT-in Minsk qrupunun həmsədrləri"nin, xüsusilə də səfir Anjey Kaspşikin, habelə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın məhkəməyə şahid qismində cəlb olunmasını hakimdən xahiş edib. "O adamlar bizi tanıyırlar və birbaşa əlaqədə olmuşuq. Onlar çox yaxşı şahid olarlar", - deyə o əlavə edib.

Təqsirləndirilən şəxs Davit İşxanyan vaxtilə Azərbaycan ərazilərində olmuş Rusiya sülhməramlılarının 6 generalının - general Muradov, general Kosabokov, general Anaşkin, general Volkov, general Lentsov və general Kulakovun şahid qismində cəlb olunmasını məhkəmədən xahiş edib.

"Mənim onlara bir sıra suallarım var. Onlar burada olan 15 nəfərlə birbaşa və yaxud bilvasitə əlaqədə olublar. Yenidən təkrar edirəm: birbaşa və yaxud bilvasitə. Düşünürəm ki, məhkəmənin də onlara sualları olar. Əgər alınmasa belə, onların burada iştirakını videobağlantı vasitəsilə təmin edəsiniz", - deyə o əlavə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək qeyd edib ki, hazırkı mərhələdə ittiham tərəfinin təqdim etdiyi sənədlər tədqiq olunur.

Bundan başqa, adları qeyd olunan şəxslərlə bağlı isə qeyd edib ki, məhkəməyə dəvət olunması xahiş edilən həmin şəxslərin təqsirləndirilən şəxslərə verilmiş və hazırda məhkəmədə baxılan ittihamlarla əlaqəsi yoxdur.

Odur ki, onların məhkəmədə şahid qismində və ümumiyyətlə hər hansı bir digər şəxs qismində dindirilməsinə zərurətin olmaması vurğulanıb. Qeyd olunanlara əsasən dövlət ittihamını müdafiə edən prokuror vəsatətin təmin olunmamasını məhkəmədən xahiş edib.

Məhkəmə iclasına sədrlik edən tərəfləri dinləyərək verilmiş vəsatətin rədd olunması haqqında qərar qəbul edib. Qərarı əsaslandıran zaman sədrlik edən qeyd edib ki, müdafiə tərəfi vəsatətdə hansı halların araşdırılması, bu halların ittihamla bağlılığı və s. əhəmiyyət kəsb edən halları göstərməyib.

Məhkəmə prosesi sənədlərin tədqiqi ilə davam etdirilib.

1991-ci il noyabrın 20-də hərbi vertolyotun vurulması faktı üzrə elan olunan sənəddə bildirilib ki, hadisə zamanı aralarında Azərbaycanın Baş prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri İsmət Qayıbov, müdafiə və dövlət təhlükəsizliyi məsələləri üzrə dövlət müşaviri, milis general-mayoru Məhəmməd Əsədov, Dövlət katibi Tofiq İsmayılov, Baş nazirin müavini Zülfü Hacıyev, Milli Məclisin deputatları Vaqif Cəfərov və Vəli Məmmədov, Prezident Aparatının şöbə müdiri, jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini, general-mayor Saylal Serikov Dosumoviç, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, telejurnalist Alı Mustafayev və digərlərinin də olduğu 22 nəfər həlak olub. Xocavənd rayonunun Qarakənd kəndində hadisə yerinə baxış keçirilib, vertolyotun aparıcı vintinin qurtaracaq hissəsinin güllə deşmiş qırığı, vertolyotun güllə deşmiş qırıqları və s. aşkar edilib.

Daha bir sənəd Əsgərova Salatın Əziz qızı və digərlərinin öldürülməsi faktı üzrə olub.

1992-ci il yanvarın 28-də sərnişin helikopteri ilə bağlı sənəddə göstərilir ki, vertolyot Ermənistan silahlı qüvvələri tərəfindən raketlə vurulub. Nəticədə vertolyot torpaq yola çırpılaraq partlayıb, 42 nəfər ölüb.

Xocalı soyqırımı ilə bağlı cinayət işinin sənədləri də diqqətə çatdırılıb. Bildirilib ki, hadisə yerinə baxış vertolyotla ərazinin üzərindən hərəkət etməklə keçirilib, bu zaman Xocalı şəhərində evlərin alovlar içərisində yandığı, şəhərin küçələrində təxminən 500-dək şəxsin meyiti, zədələnmiş və yandırılmış müxtəlif markalı avtomaşın və avtobuslar, küçələrdə Ermənistan silahlı qüvvələrinin hərbçilərinin piyada hərəkət etdikləri müşahidə edilib. Bu zaman həmin Ermənistan silahlı qüvvələri istintaq-əməliyyat qrupunun olduğu vertolyotu da avtomat silahlardan atəşə tutub.

Sənədlərə əsasən, "Azərinform"un (indiki AZƏRTAC - red.) fotomüxbiri İlqar Cəfərov şahid qismində ifadəsində göstərib ki, 1992-ci il fevralın 26-da Xocalı faciəsinin törədilməsi barədə məlumatı alan kimi əraziyə gedib, martın 1-də səhər tezdən Ağdam şəhər məscidinin önündə Xocalı qırğınından xilas olan, oradan qaçarkən soyuqdan donmuş, yaralanmış dinc sakinlərin, erməni hərbçilər tərəfindən Xocalıda qətlə yetirilmiş yaxın adamlarının meyitlərini gözləyən insanların, gətirilən meyitlərin yaxın şəxslərinin faciəsini fotoşəkillərlə qeydə alıb.

Şahid qismində dindirilmiş Baş fotoinformasiya redaksiyasının müxbiri Oqtay Məmmədov ifadəsində göstərib ki, 1992-ci il martın 3-də Bakı şəhərinin Təcili yardım xəstəxanasına gedərək Xocalıdan gətirilmiş yaralı şəxsləri fotoşəkillərini çəkib. Bunlardan hər iki valideyni qətlə yetirilmiş 8 yaşlı Xatirə Orucovanın, gözlərinin qarşısında 2 qardaşı qətlə yetirilmiş 18 yaşlı Xuramanın, Ermənistan silahlı qüvvələrinin atəşlərindən qaçarkən Naxçıvanlı kəndi yaxınlığındakı meşədə qarlı ərazidə ayaqlarını don vurmuş 13-14 yaşlı Mübariz Həmidovun və Mübariz Mahmudovun şəxsiyyətini yadda saxlasa da, qalan şəxslər barədə məlumatı olmayıb.

Digər sənədə əsasən, şahid qismində dindirilmiş "Azərinform"un Fotoxronika bölməsinin baş redaktoru Mixail Çianurovun, "Ostankino" Teleradio şirkətinin Azərbaycan Respublikasında müxbir məntəqəsinin müdiri Mais Məmmədovun da ifadələri elan edilib.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Dövlət ittihamçısı Fuad Musayev vəsatətlə çıxış edərək, məhkəmə iclasında 1991-1992-ci illərdə baş verən cinayət hadisələri tədqiq edildiyinə görə, Ermənistanın müdafiə nazirinin sabiq müavini Manvel Qriqoryanın mətbuata müsahibəsinin sübut kimi tədqiq olunmasını xahiş edib.

Hakim dövlət ittihamçısının vəsatətini təmin edib.

Məhkəmə prosesinin gedişində təqsirləndirilən şəxs Davit İşxanyan vəkili ilə konfidensial görüş üçün imkan yaradılmasını istəyib.

Məhkəmə vəsatəti təmin edib.

Konfidensial görüşdən sonra təqdim olunan videomüsahibədə M.Qriqoryan Azərbaycan dövlətinə və xalqına qarşı törədilmiş cinayətlərdə iştirak etdiyini söyləyir. O, müsahibəsində rəhbərlik etdiyi cinayətkar təşkilatın fəaliyyətindən, onun üzvlərinin silahlanaraq Azərbaycan ərazilərinə göndərilməsindən də danışır. "Hətta onları yoldan oğurlayırdıq, tuturduq, döyürdük, qorxudurduq ki, gəlməsinlər... Ağbulaq məktəbində həm erməni, həm də türklər birlikdə idilər, böyük məktəb idi. Biz məktəblərdə uşaqlarla işləyirdik ki, türkləri döysünlər...", - kimi ifadələr səsləndirən M.Qriqoryan müsahibəsində qeyd edir ki, "hər şeyi bilərək, yəni biz idarə edirdik...".

Məhkəmə prosesi sentyabrın 25-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi keçirilib





**Sentyabrın 22-də Daxili İşlər Nazirliyində ölkəmizdə keçiriləcək III MDB Oyunları müddətində ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında naziryanı əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına evsahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

"2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı" elan edilən Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək III MDB Oyunları müddətində gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyi qeyd olunub.

V.Eyvazov ölkəmizin evsahibliyi edəcəyi bu əhəmiyyətli idman tədbiri ərəfəsində və günləri zamanı da iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələri üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.

*"Azərbaycan"*

# IDEA-nın təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva Nyu Yorkda "Anadolunun qapıları arxasındakı xəzinələr" adlı sərgidə iştirak ediblər





**Sentyabrın 22-də ABŞ-nin Nyu York şəhərində yerləşən Türk Evində Türkiyənin birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə "Anadolunun qapıları arxasındakı xəzinələr" adlı sərgi keçirilib.**



AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Arzu Əliyeva sərgidə iştirak ediblər.

Qədim sivilizasiyalara aid sənət nümunələrinin və əl işlərinin nümayiş olunduğu sərginin məqsədi Anadolu mədəniyyətinin təbliği və mədəniyyətlərarası dialoqun təşviqidir.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan bildirib ki, bu tədbir təkcə kökü qədim tarixə söykənən Anadolu mədəniyyətinin incəliklərini ortaya qoymur, eyni zamanda müasir həyatda da Anadolu insanının minillik təcrübəsi və bacarıqlarının öyrənilməsinin zəruriliyini sübut edir.

Əminə Ərdoğan ətraf mühitin mühafizəsi məqsədilə "Sıfır Tullantı" prinsipinin nəinki müasir dövrdə, qədim zamanlarda belə Anadolu coğrafiyasında prioritet istiqamət olduğunu deyib. Sərgi Anadolunun zəngin məhsul müxtəlifliyinə həsr olunmuş "Torpağın münbitliyi", "Mətbəxin toplanması" və "Əllərin ustalığı" adlı üç əsas mövzunu əhatə edib.

# I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu uğurlu əməkdaşlığa və ümumi rifaha möhkəm zəmin yaradacaq

**Bir ölkənin nüfuzu yalnız iqtisadi, siyasi və hərbi gücü ilə deyil, həm də ona göstərilən hörmət, ehtiram və beynəlxalq ictimaiyyətin etimadı ilə ölçülür. Qürurverici haldır ki, bu gün Azərbaycan qlobal hadisələrin, beynəlxalq tədbirlərin müzakirə olunduğu mərkəzlərdən biri kimi tanınır.**

Ölkəmiz beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilatçısı və etibarlı ev sahibi kimi dünyada böyük nüfuz qazanıb. Uzağa getmədən "Terrorçu hücumlar və silahlı münaqişələr zamanı humanitar böhranların, qlobal xarakterli texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyəti" mövzusunda Bakı Təhlükəsizlik Forumunu, eləcə də dövlətimizin başçısı İlham Əliyevin himayəsi altında, İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun təşkilatçılığı, Avropa Evi - "Ambrosetti" (TEHA) strateji tərəfdaşlığı, "Euronews" və "Sea Breeze"in media və təşkilati dəstəyi ilə keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunu qeyd edə bilərik. Sözsüz ki, bu gün dünyada sabitliyin və sakitliyin mərkəzi kimi tanınan Azərbaycanda bu cür yüksəksəviyyəli tədbirlərin keçirilməsi rəsmi Bakının özünü beynəlxalq aləmdə etibarlı tərəfdaş və nüfuzlu iqtisadi mərkəz kimi təsdiqləməsi ilə birbaşa bağlıdır.

Həyata keçirilən sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradıb. Elə bunun nəticəsidir ki, 2004-2024-cü illər ərzində investorlar iqtisadiyyatımıza 344,4 milyard dollar həcmində sərmayə yatırıblar. Xatırladaq ki, yatırılan sərmayənin böyük bir hissəsi - 213,2 milyard dolları qeyri-neft sektorunun inkişafına yönəlmişdir. Bu həm də xarici investorların Azərbaycana olan etimadı, ölkəmizdə hökm sürən təhlükəsizlik və sabitlik mühitinə verdikləri dəyər kimi də qəbul edilir. Nəticədə bu gün ölkəmizdə minlərlə xarici kapitallı şirkət fəaliyyət göstərir. Bu, ölkəmizdə müasir korporativ idarəetməyə əsaslanan, rəqabətli və dayanıqlı iqtisadiyyatın formalaşmasına verilən mühüm töhfədir. Qürurlandırıcı faktdır ki, qazanılan etimad sayəsində əksər xarici şirkətlər bu gün də ölkəmizi özləri üçün təkrar investisiya yatırmaq üçün ən uyğun məkan olaraq seçirlər.

Əlverişli coğrafi mövqeydə yerləşən Azərbaycan bu gün sürətlə regional iqtisadi siyasətin strateji mərkəzinə çevrilir. Orta dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin işə düşməsi ilə bu həcmin daha da artacağına şübhə yoxdur. Ölkəmizdə yaradılmış müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və müasir dəmiryolu infrastrukturu sərmayədarlara qlobal bazarlara birbaşa çıxış və yüksək tranzit səmərəliliyi təklif edir. Eyni zamanda xüsusi iqtisadi zonalar, müasir nəqliyyat və rəqəmsal infrastruktur istehsal, logistika, bərpaolunan enerji, rəqəmsal xidmətlər və yüksək dəyərli kənd təsərrüfatı üçün hazır platformalar təqdim edir.

Azərbaycanın həyata keçiridiyi enerji diplomatiyası ölkəmizin beynəlxalq iqtisadi mövqeyinin güclənməsində mühüm rol oynayır. Ölkəmiz hazırda bir sıra dövlətlərin həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində strateji tərəfdaşıdır. Bu gün təbii qazla yanaşı, günəş və külək enerjisi layihələri, Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası, eləcə də "ağıllı infrastruktur" konsepsiyalarının tətbiqi ölkəmizi qlobal enerji keçidinin aparıcı iştirakçılarından birinə çevirməkdədir. Qürurverici faktdır ki, Azərbaycan həm bu günün enerji təhlükəsizliyini möhkəmləndirir, həm də sabahın "yaşıl iqtisadiyyat"ını qurur.

Qeyd edək ki, ölkəmizin paytaxtında keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu Şərq və Qərbin strateji qovşağında yerləşən ölkələrin investisiya imkanlarını araşdırmaq, qlobal ticarətin və dayanıqlı təchizat zəncirlərinin gələcəyini formalaşdırmaq üçün unikal bir platforma təqdim edir. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində qeyd edildiyi kimi, "burada iştirakçılar yeni qlobal rəqabətlilik paradiqmalarına dair dəyərli biliklər əldə etməklə yanaşı, yüksəksəviyyəli əlaqələr qurmaq, strateji sazişlər bağlamaq və yeni tərəfdaşlıqlar formalaşdırmaq imkanları qazanacaqlar".

Dövlət və hökumət rəsmilərinin, iş adamlarının və beynəlxalq investorların iştirakı ilə keçirilən forumda enerji, nəqliyyat, sənaye, kənd təsərrüfatı, rəqəmsal inkişaf, səhiyyə və daşınmaz əmlak sahələrində regional əməkdaşlıq və investisiya perspektivləri müzakirə olunur. Regionların strateji inteqrasiyası, tranzit imkanları, enerji və infrastruktur layihələri, innovasiyalar, "yaşıl enerji", daşınmaz əmlak, şəhərsalma və dayanıqlı inkişaf mövzularının müzakirə edildiyi tədbirdə dövlət-özəl tərəfdaşlığı, maliyyə, səhiyyə, biotexnologiya, əczaçılıq və rəqəmsal sağlamlıq, kənd təsərrüfatı, aqrobiznes, ərzaq sənayesi, sənayeləşmə, kiçik və orta sahibkarlıq, "yaşıl keçid", eləcə də sahibkarlığın inklüzivliyi mövzularından da söhbət gedir.

Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun plenar sessiyası çərçivəsində Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov və Birləşmiş Ərəb Əmirliyinin İnvestisiya naziri Muhəmməd Həsən əs-Suveydinin iştirakı ilə Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin "Modon Holding"i arasında "Şəhər daxilində şəhər" ("City within a City") konsepsiyasının inkişafına dair əməkdaşlıq müqaviləsi imzalanıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Modon Holding"in sədri Cəssəm Muhəmməd Bu Ataba əz-Zəəbinin imzaladığı və 5 milyard dolların investisiya yatırımını nəzərdə tutan konsepsiya Böyükşor gölü ətrafında sağlamlıq, ticarət, təhsil və mehmanxana obyektlərini əhatə edən müasir sahilyanı zonanın yaradılmasını nəzərdə tutur.

Forum çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Samir Şərifov, iqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması layihəsi ilə bağlı bir sıra sənədlərin imzalanma mərasimi də keçirilib. Xəzər dənizi suyunun duzsuzlaşdırılması zavodunun layihələndirilməsi, tikintisi, maliyyələşdirilməsi, istismarına dair Dövlət-Özəl Tərəfdaşlığı Müqaviləsi - sənədini Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin baş icraçı direktoru Marco Arçelli, Təmizlənmiş suyun alqı-satqısı üzrə Su Satınalma Müqaviləsi - sənədini "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri Tahir Xəlilov və Marco Arçelli, Torpaq Sahəsinin İcarəsinə dair Müqavilə - sənədini iqtisadiyyat naziri Mikayıl Cabbarov, İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və Marco Arçelli, Dövlət Zəmanəti Müqaviləsi - sənədi maliyyə naziri Sahil Babayev və Marco Arçelli imzalayıblar. Xatırladaq ki, dəniz suyunun duzsuzlaşdırılması layihəsi İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində ölkəmizdə icrası nəzərdə tutulan ilk pilot layihədir. Layihə çərçivəsində Sumqayıt Sənaye Parkında tikiləcək zavodda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı həyata keçiriləcək. Gündəlik 300 min kubmetr məhsuldarlığa malik layihənin dəyəri 407 milyon dollar təşkil edir. Müqaviləyə əsasən, zavodun layihələndirilməsi, tikintisi və 25 il müddətində istismarı "ACWA Power" tərəfindən həyata keçiriləcək.

Layihə Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək məqsədilə həyata keçirilir. Hədəf dövlətin içməli su təchizatında yükünü azaltmaq, bu sahədə beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq, iqtisadiyyata xarici sərmayələri cəlb etmək məqsədlərimiz sırasındadır.

I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu əməkdaşlıq və sərmayə cəlbinin yeni mərhələsi üçün başlanğıcdır. Sözsüz ki, forumda imzalanan sənədlər uğurlu əməkdaşlığa və ümumi rifaha möhkəm zəmin yaradacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

**Son illər ölkəmizin xarici siyasətində mühüm istiqamətlərdən biri də Afrika dövlətləri ilə əməkdaşlığın genişləndirilməsidir. Bu da həqiqətdir ki, Azərbaycanın Afrika qitəsinə yönəlik diplomatik fəallığı, qarşılıqlı siyasi dəstək, iqtisadi tərəfdaşlıq və humanitar layihələr çərçivəsində ciddi inkişaf mərhələsinə qədəm qoyub. Bu dinamika Azərbaycanın qlobal miqyasda artan rolunun və çoxtərəfli əlaqələr strategiyasının bir göstəricisidir.**



## Etibarlı tərəfdaş və dost

### Ruanda Prezidenti Pol Kaqamenin ölkəmizə səfəri ikitərəfli münasibətlərə təkan verəcək

1992-2012-ci illərdə Afrika dövlətlərinin əksəriyyəti ilə diplomatik münasibətlərin qurulması ilə başlayan bu proses Bakının fəal xarici siyasəti sayəsində inkişaf edib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Afrika ölkələri ilə münasibətlərin daha da dərinləşməsinə imkan yaradıb. Ümumiyyətlə, Azərbaycanın Afrika siyasəti daha çox 2019-cu illərdən etibarən nəzərəçarpacaq dərəcədə canlanmağa başlayıb. Bu prosesdə BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda aparılan çoxşaxəli fəaliyyət əsas yer tutur. Xüsusən də Azərbaycanın 2019-2023-cü illərdə Qoşulmama Hərəkatına sədrlik etməsi Afrika ölkələri ilə münasibətlərin yeni mərhələyə keçməsinə mühüm təkan verib. Sədrliyi dövründə Azərbaycan Afrika dövlətlərinin səsini beynəlxalq tribunalarda ucaldaraq onların inkişaf, ədalət və suverenlik çağırışlarına dəstək göstərib. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycan inkişaf etməkdə olan ölkələrlə həmrəyliyə xüsusi önəm verir və bu siyasət Afrika ilə münasibətlərdə öz real ifadəsini tapır.

Sentyabrın 20-də Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin ölkəmizə səfəri, Prezident İlham Əliyevlə keçirilən görüşlərdə səslənən fikirlər, imzalanan 6 mühüm sənəd və dövlət başçılarının mətbuata bəyanatları səsləndirdiyimiz fikirlərin real təsdiqidir.

Öncə onu vurğulayaq ki, müxtəlif qitələrdə yerləşmələrinə baxmayaraq, fərqli tarixi və mədəniyyəti olan Azərbaycan ilə Ruanda arasında son illər ikitərəfli münasibətlər intensivləşir. Bu, iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə qarşılıqlı marağın olduğunu təsdiqləyir. Qarşılıqlı əlaqələr yalnız Qoşulmama Hərəkatı kimi çoxtərəfli platformalarda deyil, həmçinin ikitərəfli görüşlər və layihələr çərçivəsində genişlənir.

Azərbaycan və Ruanda arasında diplomatik əlaqələr 2004-cü il mayın 28-də qurulub. Bu addım iki ölkə arasında münasibətlərin əsasını qoyub. Qeyd etmək lazımdır ki, uzun müddət ikitərəfli deyil, əsasən, çoxtərəfli platformalarda inkişaf edən əlaqələr son dönəmdə aktiv fazaya qədəm qoyub. Bakı ilə Kiqali arasında Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı dialoq üçün əsas platformalardır. Məhz bu təşkilatlar çərçivəsində Ruanda daim Azərbaycana dəstəyini ifadə edib. Bunun əyani sübutu Ruandanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılmasının lehinə səs verməsi olub. Bundan əlavə, Ruanda COVID-19 pandemiyası dövründə Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüsləri fəal şəkildə dəstəkləyib. Bakıda keçirilən COP29 çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Ruanda Prezidenti Pol Kaqamenin görüşü iki ölkə arasında münasibətlərin artan əhəmiyyətini bir daha vurğulayıb. Görüşdə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və investisiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. "Commonwealth" təşkilatı çərçivəsində əməkdaşlıq, birgə İşçi Qrupunun yaradılması tərəflərin əlaqələrinin inkişafı istiqamətində məqsədyönlü addımlarını təsdiqləyir.

Azərbaycan ilə Ruanda arasında münasibətlər qarşılıqlı faydalı əməkdaşlıq müstəvisində də inkişaf edir. 2023-cü ildə BMT Baş Assambleyasının 78-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində iki ölkə arasında imzalanan sənədlər əlaqələrin daha da şaxələnməsinə müsbət impuls verib. Son illər ərzində isə Azərbaycan ilə Afrika ölkələri arasında münasibətlər ənənəvi siyasi dialoq çərçivəsindən kənara çıxaraq irəliləyib.

1992-2012-ci illərdə Afrika dövlətlərinin əksəriyyəti ilə diplomatik münasibətlərin qurulması ilə başlayan bu proses Bakının fəal xarici siyasəti sayəsində inkişaf edib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi Afrika ölkələri ilə münasibətlərin daha da dərinləşməsinə imkan yaradıb. 2019-cu ildə Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Bakıda keçirilən Zirvə görüşü, eləcə də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı Misir, Əlcəzair, Konqo və Somali kimi Afrika dövlətlərinin rəhbərləri ilə yüksəksəviyyəli görüşlər üçün mühüm platforma rolunu oynayıb. Konqo Prezidentinin 2024-cü ildə ikitərəfli razılaşmaların imzalandığı səfər, həmçinin Somali və Qvineya-Bisau prezidentlərinin oxşar səfərləri də müdafiə, təhsil və digər sahələrdə əməkdaşlığın genişlənməsinə təkan verib.

Ruanda Prezidetinin Azərbaycana səfərini dəyərləndirərkən İlham Əliyev bildirdi ki, bu səfər ikitərəfli münasibətlərə əlavə təkan verəcək. Çünki Azərbaycan ilə Ruanda yaxşı tərəfdaş və dostlardır. İki dost ölkə müxtəlif beynəlxalq təsisatlarda birgə iştirak edir və hər zaman bir-birini dəstəkləyir. Qoşulmama Hərəkatında sədrliyimiz dövründə Ruanda hər zaman Azərbaycana dəstək verib. Siz bizə sədr seçilmək və sonra sədrliyimizin uzadılması üçün dəstək verdiniz. Hər iki dövlət birmənalı olaraq BMT daxilində fəal əməkdaşlıq edir və bir-birinə qarşılıqlı dəstəyi artırır".

Qeyd edək ki, Ruanda da Azərbaycan kimi soyqırıma məruz qalmış ölkədir. Fransanın Afrikada törətdiyi ən dəhşətli qətliamlardan biri də Ruanda soyqırımıdır. 1994-cü ildə baş verən bu terror nəticəsində milyonlarla insanın qətlə yetirildiyi bildirilir. Bu gün isə Ruanda-Konqo arasında münaqişə davam edir və Ruanda məsələnin sülh yolu ilə həllinin tərəfdarıdır.

Ruanda Prezidenti Pol Kaqame məhz bu məsələyə toxunaraq bildirdi ki, hazırda Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqları təqdirəlayiqdir: "Sizi ölkənizdə cərəyan edən bu inkişaf prosesləri münasibətilə təbrik etmək istəyirəm. Siz sülh prosesini sürətləndirəcək bir məsələ ilə məşğulsunuz. Mən Sizin ABŞ-də gəldiyiniz razılaşmanı - sülh razılaşmasını gördüm. Nəyə görə mən bu məsələni qabardıram, çünki biz də Ruanda və Konqo Demokratik Respublikası arasında özümüz üçün bir sülh sazişinə nail olmaq istəyirik. Lakin siz müəyyən hədəflərə çatmaq baxımından bizdən irəlidəsiniz. Odur ki, mən Sizi bu münasibətlə təbrik etmək istəyirəm". Dövlət başçısı onu da qeyd etdi ki, ölkəsi bu gün Azərbaycanın sahib olduğu müasir texnologiyaların Ruandada tətbiq olunmasında maraqlıdır.

Beləliklə, prezidentlərin səsləndirdiyi fikirlərə, imzalanan sənədlərə əsasən deyə bilərik ki, Azərbaycanla Ruanda arasındakı münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub.

Ümumiyyətlə, hazırda Prezident İlham Əliyevin siyasi iradəsi və uzunmüddətli strateji məqsədlərə istiqamətlənmiş müdrik siyasəti nəticəsində Afrika qitəsi ölkələri ilə münasibətlərin daha da inkişaf etdirilməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi prosesi davam edir, bu əlaqələrdə ölkəmizin milli mənafeyinə uyğun yeni hədəflər müəyyənləşdirilib. Azərbaycanla Afrika qitəsi ölkələri arasında iqtisadiyyat, neft-qaz, mədənçilik, müdafiə sənayesi, minatəmizləmə, təhsil sahələrində, eləcə də humanitar yardımların həyata keçirilməsi və "ASAN xidmət" modelinin Afrika ölkələrində tətbiqi istiqamətlərində əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial mövcuddur. Xatırlatmaq yerinə düşər ki, hazırda Azərbaycanın qitədə ən geniş iqtisadi əlaqələrə malik olduğu ölkələr Tunis, Cənubi Afrika Respublikası, Misir, Mərakeş, Liviya və Keniyadır. Son vaxtlar Konqo ilə enerji sahəsində əməkdaşlıq üçün addımlar atılıb. Artıq Ruanda da Azərbaycanın Afrikadakı dostları sırasında yer alır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## "Azərbaycan və BƏƏ münasibətləri strateji müttəfiqlik mərhələsinə qədəm qoyub"

**Sentyabrın 16-da Qarabağın incisi olan Şuşa şəhərində Prezident İlham Əliyevlə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında keçirilmiş görüş yalnız ikitərəfli münasibətlərin dərinləşməsi baxımından deyil, həm də regionda yeni əməkdaşlıq imkanlarının açılması ilə tarixə düşdü.**



BƏƏ ilə Azərbaycanın iqtisadiyyat, enerji, qida təhlükəsizliyi, mədəniyyət kimi sahələrdə əməkdaşlıq etdiyini qeyd edən Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında deyib ki, liderlərin şəxsi dostluq münasibətləri, qarşılıqlı hörmət və ehtiram iki ölkə arasında əməkdaşlıq əlaqələrini daha da gücləndirir.

Prezident İlham Əliyev bu səfərin dostluq və qardaşlıq əlaqələrinə yeni təkan verəcəyini vurğulayıb. Şuşa artıq Azərbaycanın diplomatik şəhərinə çevrilir. Görüşün məhz işğaldan azad olunmuş Şuşada baş tutması strateji bir addım idi. İmzalanan sənədlər, xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə iki ölkə arasında münasibətləri daha da dərinləşdirəcək. "Dövlət başçımız xüsusilə bərpaolunan enerji sahəsində BƏƏ şirkətlərinin roluna toxunaraq, ölkədə istifadəyə verilmiş ilk günəş-elektrik stansiyasının məhz bu əməkdaşlığın nəticəsi olduğunu xatırladıb. Yaxın illərdə bir neçə qiqavatlıq "yaşıl enerji" istehsalı planı da ölkəmizdə BƏƏ-nin dəstəyi ilə reallaşacaq. "Masdar" şirkətinin Azərbaycanda inşa etdiyi nəhəng günəş-elektrik stansiyası MDB məkanında ən böyük layihə hesab olunur",- deyə P.Vəliyeva əlavə edib.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda yaranmış yeni reallıq ölkəmizin beynəlxalq nüfuzunu daha da artırıb. BƏƏ liderinin Azərbaycanın regionda sülh və əmin-amanlığın təmin olunmasında oynadığı rolu yüksək qiymətləndirməsi və Ermənistanla sülh sazişi istiqamətində əldə edilmiş nailiyyətləri alqışlaması buna bariz nümunədir. Şuşada keçirilən görüş çərçivəsində enerji, nəqliyyat, turizm, süni intellekt, təhsil və biznes sahələrini əhatə edən 15-dən artıq sənəd imzalanıb. Onların sırasında enerji və bərpaolunan enerji üzrə Anlaşma Memorandumları, turizm və mədəniyyət sahəsində əməkdaşlıq sənədləri, süni intellekt və rəqəmsal inkişaf sahəsində razılaşmalar, SOCAR və ADNOC arasında strateji əməkdaşlıq sazişi xüsusi əhəmiyyət daşıyır.

P.Vəliyeva bildirib ki, Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin enerji əməkdaşlığı beynəlxalq miqyasda da diqqət çəkir: "Dubayda keçirilmiş UNFCCC COP28 zamanı əldə edilən təcrübə Bakıda təşkil olunan COP29-un uğurlu keçirilməsinə töhfə vermişdi. Bundan əlavə, "COP28-COP30" troika formatı (BƏƏ-Azərbaycan-Braziliya) qlobal iqlim gündəliyində üç ölkənin sıx əməkdaşlığını təmin edir".

Deputat qeyd edib ki, Şuşadakı görüş Azərbaycan və BƏƏ münasibətlərinin artıq klassik diplomatik əməkdaşlıq çərçivəsini aşaraq strateji müttəfiqlik mərhələsinə qədəm qoyduğunu bir daha təsdiqləyib. Bu əməkdaşlıq təkcə enerji və iqtisadi sahələrlə məhdudlaşmır, həm də mədəniyyət, təhsil, turizm və regional təhlükəsizlik istiqamətlərini əhatə edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ermənistanın sabitliyi, iqtisadi inkişafı yalnız sülh sazişinin imzalanmasından keçir

**Bu gün Ermənistanın üzləşdiyi ən böyük problemlərdən biri də illərdən bəri davam edən siyasi böhran, korrupsiya və idarəetmədəki boşluqlardır. Ölkədə işsizlik artıb, inflyasiya yüksəlib və sosial xidmətlər zəifləyib. Əhalinin böyük bir qismi gündəlik ehtiyaclarını qarşılaya bilmir və gələcəyindən ümidsizdir. Odur ki, insanlar iş axtarmaq və normal yaşamaq üçün başqa-başqa ölkələrə köçürlər.**

Şirak vilayətində, Loru və Zəngəzur bölgələrində də əhali axını nəticəsində kəndlər boşalır. Rəsmi statistikaya görə, Rusiyadakı əməkçi miqrantların təxminən 20 faizi ermənilərdir. Onların arasında Qarabağı könüllü tərk etmiş ermənilər daha çoxdur. Bunun səbəbləri var. İkinci Qarabağ müharibəsindən sonra Qarabağdan Ermənistana könüllü köç etmiş haylar orada ciddi sosial-iqtisadi çətinliklərlə üzləşiblər. Arzuladıqları sabitliyi və rifahı tapa bilmirlər. İşsizlik, mənzil problemi, aşağı gəlirlər və qeyri-müəyyən hüquqi status onların ölkədə qalmaq istəyini sürətlə azaldır. 2020-2024-cü illər ərzində 24 mindən çox Qarabağ ermənisi bu ölkəni birdəfəlik tərk edib. Onların ən çox üz tutduqları ölkə Rusiyadır.

Ermənistan mediası bu və digər bölgələrdəki vəziyyəti öyrənməyə çalışıb. Məlumata görə, Göyçənin Sotk ərazisinin rəhbəri Sevak Xaçatryan bölgədə işsizlik probleminin olduğunu dilə gətirib.

Tavuş rayonunun Movses kəndinin inzibati rəhbəri Aşot Poladyan da işsizlikdən əziyyət çəkdiklərini deyib. Bildirib ki, kəndi tərk edənlər azdır, lakin işləmək üçün tez-tez xaricə üz tutanlar var: "Təkcə kənddə yox, ümumilikdə bölgədə işsizlik problemi ciddidir".

Zəngəzurun Xnatsax (Xanazax) qəsəbəsinin inzibati rəhbəri Seyran Mirzoyan isə insanların ərazini tərk etdiyini bildirib. O, kəndin tamamilə boşalması haqda deyilənlərin doğru olmadığını deyib, lakin əlavə edib ki, zaman-zaman gedənlər olur: "Sonuncu dəfə 3 ay əvvəl gedənlər olub. Gedənlərin də əsas səbəbi işsizlikdir".

Görünən odur ki, Ermənistanda Qarabağdan gəlmiş ermənilərə qarşı sosial-psixoloji və mədəni ayrı-seçkilik meyilləri güclüdür. Yerli hayların əksəriyyəti bu köçkünləri özlərindən hesab etmirlər. Onlara "yad" kimi baxırlar. Hətta onlar indi "artıq yük" hesab edilir, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən təzyiqlərə məruz qalırlar.

Ermənistan hökuməti demoqrafik böhrana səbəb olan bu kimi problemləri aradan qaldırmaq üçün bəzi sosial proqramlar tətbiq etsə də, onların səmərəsi olmayıb. Çünki mənzil proqramlarından yararlanmaq üçün vətəndaşlıq şərti qoyulub. Bu isə o deməkdir ki, Ermənistana yeni gəlmiş və hüquqi statusu qeyri-müəyyən olan şəxslər bu yardımlardan yararlana bilməzlər.

Vaşinqton Bəyannaməsindən sonra Qarabağ erməniləri yenidən aktivləşdirilib və siyasi qurumlar, partiyalar, siyasətçilər onlara "dəstək verirlər". Müəyyən qüvvələrin dəstəyi ilə separatçı rejimin tör-töküntüləri müxtəlif mitinqlər keçirir, açıqlamalar verir, bəyanatlar səsləndirirlər. Baş verənlər sübut edir ki, hadisələr müəyyən dirijorlar tərəfindən idarə edilir. Məqsəd nəinki Paşinyana qarşı xalqı ayağa qaldırmaq və nifrət hissi yaratmaqdır, eyni zamanda iki ölkə arasında sülh müqaviləsinə mane olmaqdır.

Qarabağ separatçıları əvvəl olduğu kimi, indi də bəzi qüvvələrin əlində məqsədə çatmaq üçün alətdir. Bu cəhdlər Ermənistan cəmiyyətində daxili siyasi proseslərin və hakimiyyət uğrunda mübarizənin tərkib hissəsi olmaqla yanaşı, regionda sabitliyi pozmağa yönəlmiş uğursuz təşəbbüslər kimi qiymətləndirilir. Belə təşəbbüslərdən biri də Qərbi Azərbaycan İcmasının üzvlük vəsiqələri hesabına yaradılmış xofdur. Bu ölkənin daxilindəki bəzi qüvvələr, eləcə də hökumət nümayəndələri Qərbi Azərbaycan gerçəyini qəbul etmək istəmirlər, özlərindən müxtəlif uydurmalar icad edib erməni cəmiyyətinin beynini zəhərləməkdə davam edirlər. Ermənilər Qərbi Azərbaycan İcmasının əslən Qərbi Azərbaycandan olan soydaşlarımıza üzvlük vəsiqəsi verməsindən narahat olmağa başlayıblar.

Ermənistanın keçmiş ombudsmanı Arman Tatoyan belə bir fikir irəli sürüb ki, guya "Azərbaycanda Ermənistanda anadan olmuş 100 mindən çox azərbaycanlının bu ölkəyə köçürülməsi üçün qeydiyyata alınmasının başa çatdığı barədə rəsmi elan verilib". O, "arqument" kimi Qərbi Azərbaycan İcmasının (QAİ) üzvlük vəsiqəsinin fotosunu paylaşıb. Bildirib ki, bu, "Ermənistanın işğalının sübutudur". Vəsiqənin üzərində ata yurdunun "Qərbi Azərbaycan" olaraq qeyd edilməsi də Tatoyanı bərk narahat edib.

Milli Məclisin deputatı Arzuxan Əlizadə mətbuata açıqlamasında bildirib ki, Qərbi Azərbaycan ifadəsi gündəmə gələndən, xüsusilə Qərbi Azərbaycan İcması formalaşandan bəri Ermənistanda bu isterika yaşanmaqdadır. Amma bəzi ermənilər anlayırlar ki, tarixən həmin ərazilərdə azərbaycanlılar yaşayıblar. Ən azından son bir əsr ərzində 1 milyondan çox soydaşımız deportasiya olunub, sürgünlərə məruz qalıb, repressiya ilə üzləşib, zorla öz yurdlarından çıxarılıb, qovulub... Təbii ki, bu insanların öz doğma torpaqlarına qayıtmaq hüququ var. Beynəlxalq konvensiyalar mövcuddur, onların geri qayıdışı beynəlxalq hüquq normalarına tam uyğundur və qanunidir. Bu baxımdan anlayırlar ki, biz öz dədə-baba yurdlarımıza, torpaqlarımıza dinc yolla qayıdacağıq. Ermənistanla sülh müqaviləsinin imzalanması, münasibətlərin normallaşması bu prosesi daha da sürətləndirəcək.

Qarabağdan gedən ermənilərin əksəriyyəti azərbaycanlılara - yerli əhaliyə qarşı hərbi cinayətlərdə iştirak ediblər. Amma vaxtilə Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar öz doğma el-obalarında yaşadıqları dövrdə orada hansısa cinayət əməllərində iştirak etməyiblər. Ona görə də, rahatlıqla geri qayıtmaq imkanlarına malikdirlər və qayıdacaqlar. Ermənilər isə geri qayıtmaq məsələsində birmənalı olaraq çox ciddi tərəddüdlər içindədirlər. Bilirlər ki, burada törətdikləri cinayətlərə görə Azərbaycan qanunlarına müvafiq olaraq cavab verməli olacaqlar. Necə ki, erməni separatçıların başında duran quldurlar, cinayətkar ünsürlər məhkəmə qarşısında cavab verirlər, eləcə də o cinayətlərin iştirakçısı, səbəbkarı olan şəxslər var ki, onların geri qayıtması mümkünsüzdür. Ancaq biz öz dədə-baba torpaqlarımıza geri dönmək uğrunda prosesi davam etdirəcəyik.

Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, Əməkdar elm xadimi Vaqif Şadlinski isə müxbirimizə demişdir:

- Ermənistan hökuməti ölkədə miqrasiyanın qarşısını almaq, sabitliyə və inkişafa nail olmaq istəyirsə, Azərbaycanın beynəlxalq qanunlara əsaslanan tələb və tövsiyələrinə əməl etməlidir. Prezident İlham Əliyev istər xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə, istərsə də ölkəmizdə dövlət başçıları və ictimaiyyətlə görüşlərində dəfələrlə açıq və qətiyyətli şəkildə demişdir: "Ermənistan tərəfi öz "ev tapşırığını" - yəni konstitusiyadakı ərazi iddialarının ləğvini vaxtında və tam şəkildə yerinə yetirməlidir".

Sülh yolu Ermənistanı Azərbaycan, Türkiyə, Gürcüstan və Orta Asiya ölkələri ilə birgə layihələrə qoşula biləcək vəziyyətə gətirir. Bakı-Tbilisi-Qars dəmir yolu kimi mövcud infrastruktur layihələri, gələcəkdə Ermənistanın da istifadə edə biləcəyi strateji marşrutlara çevrilə bilər. Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükgötürmə qabiliyyəti 2024-cü ildə 5 milyon ton olub. Ermənistanın da qoşulacağı halda, bu xətdən öz ixrac-idxal əməliyyatları üçün istifadə edə bilər. "Şimal-Cənub" nəqliyyat dəhlizinə inteqrasiya, Ermənistana Orta Asiya-Avropa marşrutlarında pay əldə etmək imkanı yarada bilər. Lakin bu imkanların reallaşması, Azərbaycanın Ermənistanı regional əməkdaşlıq formatlarına qəbul etməsinə bağlıdır.

Ən başlıcası, Ermənistan üçün sülh sadəcə siyasi bir seçim deyil - ölkənin gələcək iqtisadi inkişafı, beynəlxalq nüfuzu və daxili sabitliyi üçün yeganə çıxış yoludur. Sülh yolu Ermənistanı iqtisadi blokadadan çıxarır, sərhədləri açır, tranzit gəlirlərini artırır, beynəlxalq imicini yaxşılaşdırır və investisiya axını üçün real şərait yaradır. Lakin bu yol, yalnız Azərbaycanla səmimi əməkdaşlıq, öhdəliklərə riayət və qarşılıqlı etimad əsasında reallaşa bilər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Suverenliyin bərpasının beynəlxalq müstəvidə yaratdığı nəticələr və perspektivlər

## Separatizmə son qoyulması həm daxili, həm də xarici siyasətdə ölkəmizin uğurudur

**Separatizm bir dövlətin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü və siyasi birliyini qismən və ya tam şəkildə parçalamaq, onun siyasi müstəqilliyinə qəsd və daxili işlərinə müdaxilə etmək deməkdir. Əgər bu proses zor tətbiqi ilə müşayiət olunursa, artıq silahlı separatizmdən söhbət gedir və bu, terrorizm ünsürlərini də özündə ehtiva edir.**



Ermənistan Azərbaycana qarşı ərazi iddiası irəli sürməklə yanaşı, ölkəmizin daxilində separatizmi təşviq etmiş, işğalçılıq siyasəti və anneksiya cəhdi həyata keçirməklə ölkəmizin təhlükəsizliyinə ciddi təhdidlər yaratmışdı. Ərazilərimiz işğal altında olduğu zaman Ermənistan siyasi, iqtisadi, maliyyə və hərbi resurslardan istifadə etməklə Azərbaycanın ərazisində xunta rejiminin başında dayandığı marionet struktur formalaşdırmışdı.

Azərbaycan lokal xarakterli antiterror tədbirləri ilə məhz ərazimizdə separatizmin kökünü kəsmişdir. Silahlı Qüvvələrimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında birgünlük lokal xarakterli antiterror tədbirləri keçirməklə ölkəmizin ərazisində separatizmə öz suveren nəzarətini tam bərpa etmişdir. Separatizmə son qoyulması həm daxili, həm xarici suverenliyimizin tam bərpası üçün siyasi-hüquqi zəmin yaratdı.

Separatizmlə mübarizə ilk dəfə olaraq ikitərəfli beynəlxalq müqavilədə hüquqi öhdəlik kimi təsbit olunub. Belə ki, avqustun 8-də Vaşinqtonda paraflanmış sülh sazişinin 8-ci maddəsi Ermənistan tərəfinin separatizmə qarşı mübarizə aparmaq öhdəliyini müəyyən edir. Həmin müddəa Ermənistanın 30 illik işğalçı siyasətini nəzərə aldıqda xüsusi əhəmiyyət daşıyır. Bundan əlavə, sənədin 2-ci maddəsi tərəflərin bir-birinin siyasi bütövlüyünə qarşı hər hansı fəaliyyətə yol verməməsini təsbit edir. Hətta üçüncü dövlətlərin belə, tərəflərin ərazilərindən onların ərazi bütövlüyünə qarşı fəaliyyət üçün istifadə etməyəcəklərinə dair öhdəlik götürülüb.

### Beynəlxalq hüquqda daxili və xarici suverenlik məsələləri kontekstində Azərbaycan təcrübəsi

BMT-nin Nizamnaməsi çərçivəsində 19-20 sentyabr 2023-cü ildə keçirilən antiterror tədbir təkcə Azərbaycanın daxili sabitliyi baxımından deyil, həm də beynəlxalq hüquq müstəvisində mühüm nəticələr doğurdu. Azərbaycan Prezidenti İlham Əliyevin Xankəndi şəhərində etdiyi çıxışında vurğuladığı kimi, suverenliyimizin bərpası beynəlxalq hüququn təntənəsi oldu. O beynəlxalq hüquq ki, daxili suverenlik və xarici suverenlik anlayışlarını fərqləndirir. Daxili suverenlik dedikdə dövlətin tanınmış sərhədləri çərçivəsində ali hakimiyyətin yalnız həmin dövlət tərəfindən icrasını, hökumətin konstitusiyada təsbit olunmuş güc monopolyasiyasını təmin etməsini və dövlət orqanlarının məhdudiyyətsiz yurisdiksiyasını həyata keçirə bilməsidir.

Şanlı zəfərimiz nəticəsində Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyamız dövlətimizin bütün ərazisində tətbiq olundu və dövlət orqanlarımız bütün suveren ərazilərimizdə öz yurisdiksiyasını icra etməyə başladı. Prezident İlham Əliyev xalqımızın və dövlətimizin Konstitusiya dəyərlərinə və suverenlik prinsiplərinə sadiqliyinin təsdiqi olaraq 2025-ci ili ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan etdi. Bu tarixi qərarı bir cümlə ilə belə əsaslandırmaq olar: Umummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiyamız müasir Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşmasında və inkişafında həlledici rol oynayır.

Ağdam, Füzuli, Şuşa, Laçın, Xankəndi və işğaldan azad edilən digər ərazilərimizdə aparılan genişhəcmli quruculuq və bərpa işləri nəinki bizdə, hətta əcnəbi ziyarətçilərdə müsbət heyranlıq yaradır. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərini intensivliyinə və həcminə görə, 1990-cı illərin Berlini ilə müqayisə etmək olar. Almaniya, eləcə də Berlinin şərqi ilə qərbi Soyuq müharibənin sona çatması ilə yenidən birləşdikdən sonra orada aparılan bərpa və quruculuq işlərinə görə şəhər 1990-cı illərdə Avropanın ən böyük tikinti meydançası hesab olunurdu. Bu gün desək, Ağdam və Şuşa nəinki regionun, hətta Avropanın ən böyük tikinti meydançasıdır, yanılmarıq.

Xarici suverenlik dedikdə isə dövlətin beynəlxalq münasibətlərdə heç bir üçüncü tərəfdən asılı olmadan müstəqil xarici siyasət kursu müəyyən və müvafiq qərarlar qəbul etməsi, istədiyi müqavilələri imzalaması və ya konvensiyalara tərəf olması, eləcə də seçdiyi hərbi və iqtisadi-siyasi ittifaqlara qoşulmaq hüququ nəzərdə tutulur. Bu baxımdan Vaşinqtonda paraflanan sülh sazişi Azərbaycanın suverenliyini yalnız daxildə deyil, həm də beynəlxalq müstəvidə təsbitini özündə ehtiva edir.

Azərbaycan və Ermənistan arasında paraflanmış sülh və dövlətlərarası münasibətlərin yaradılması haqqında sazişin xüsusilə bir müddəasını vurğulamaq istərdik. Sənədin 1-ci maddəsində Ermənistan və Azərbaycan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını tanıyır. Sənəddə həm də vacib hüquqi məqam odur ki, tərəflər bunu "keçmiş SSRİ-nin respublikaları arasındakı inzibati sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrilməsi və beynəlxalq birlik tərəfindən bu şəkildə tanınması" prinsipi əsasında həyata keçirirlər. Bu müddəa Ermənistan tərəfinin uzun illər ərzində "Dağlıq Qarabağ"ın guya Azərbaycanın müstəqilliyini elan etməsindən əvvəl onun tərkibindən ayrılması barədə irəli sürdüyü hüquqi əsası olmayan iddialar kontekstində xüsusi əhəmiyyət kəsb edir. Belə yanaşma həm də onu göstərir ki, Ermənistanın Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü SSRİ dövründə mövcud olmuş inzibati sərhədlər çərçivəsində tanıması bu günə qədər Ermənistanın müxtəlif hökumətləri tərəfindən qaldırılmış ərazi iddialarının beynəlxalq hüquq baxımından qeyri-legitim olduğunu təsdiq edir. Bununla Qarabağın həm SSRİ, həm də müstəqillik dövründə Azərbaycanın suveren ərazisi olması faktı bir daha beynəlxalq hüquqi sənəd səviyyəsində rəsmiləşdirilmiş olur.

Saziş həmçinin ərazi iddialarından indi və gələcəkdə imtina, sərhədlərdə hərbi qüvvələrin yerləşdirilməməsi ilə bağlı müddəaları özündə ehtiva edir və Ermənistan hökumətinin üzərinə beynəlxalq müqavilə öhdəliyi qoyur.

### Vaşinqton razılaşmaları suverenliyimizin beynəlxalq müstəvidə təsbitidir

Suverenliyimizin bərpasından sonra Prezident İlham Əliyevin hərbi, siyasi və diplomatik səyləri və strateji vizionu əsasında formalaşdırılan Azərbaycanın sülh gündəliyinin tərkibi kimi, Vaşinqtonda Ermənistanla sülh sazişinin indiki mərhələdə paraflanması dövlətimizin sülh prosesinə yanaşmasında nə qədər ardıcıl, prinsipial mövqe sərgilədiyini göstərir.

Ermənistan tərəfindən konstitusion dəyişikliklərin edilməsinin zəruriliyinə ABŞ Prezidenti səviyyəsində dəstək ifadə olunmuşdur. Bu yerdə xüsusi vurğulamaq istərdik ki, məhz Prezident İlham Əliyevin məharətli diplomatiyası sayəsində Ermənistanın daxili qanunvericiliyinə aid məsələdə dəyişiklik edilməsinin beynəlmiləlləşdirilməsinə nail olunmuş, indiyə qədər ikitərəfli danışıqlar predmeti olmuş məsələ üçtərəfli Birgə Bəyanatın elə 1-ci bəndində təsbit edilmişdir. Hazırkı və gələcək Ermənistan hökumət nümayəndələrinin hansı formada şərh verməsindən asılı olmayaraq, bu tələb rəsmi İrəvan qarşısında qoyulmuşdur, özü də diplomatik dilin imkan verdiyi qədər qətiyyətli və belə aydın formada.

Sazişin "imzalanması və sonrakı ratifikasiyası üçün" məhz "əlavə tədbirlərin davam etdirilməsi" "ehtiyac" olaraq vurğulanmışdır. Bu da göstərir ki, sazişin indiki mərhələdə imzalanmasına mane olan faktorlar var və bunların aradan qalxması zərurətdir.

Vaşinqton sülh sammitində ATƏT-in Minsk prosesi bağlandı. Məhz Prezident İlham Əliyevin diplomatik səyləri nəticəsində Minsk qrupunun həmsədr dövləti ABŞ Prezident Tramp səviyyəsində Azərbaycan və Ermənistanın bu qərarın qəbulu üçün ATƏT-ə ünvanladığı çağırışa qoşuldu. Üç qitə - Şimali Amerika, Avropa və Asiyadan olan 57 ATƏT üzvü dövlət yekdil mövqeyi ilə bu qərarı dəstəklədilər. Başqa sözlə, Azərbaycan əsgərinin 2020-ci ilin 27 sentyabrından Füzulidəki səngərdən, ilk azad edilən Qaraxanbəyli və Qərvənd kəndlərindən başladığı prosesi Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Helsinki və Vyanadakı diplomatik müstəvidə rəsmiləşdirməyə müvəffəq oldu. Nəticədə 1988-ci ildən etibarən beynəlxalq siyasi leksikona "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" kimi pərçim edilən problem de-yure sona çatdı.

Azərbaycanın suveren nəzarətinin Qarabağ və Şərqi Zəngəzur üzərində təmin olunması nəticəsində regionda yaranmış reallıqların ATƏT müstəvisində də təsdiqini tapmasını baş katib Sinirlioglu, "on illiklərlə davam edən münaqişə və etimadsızlıqdan sonra diplomatiyanın nəyə qadir olduğunu təsdiqləyən tarixi inkişaf" kimi dəyərləndirdi. ATƏT-in fəaliyyətdə olan sədri - finlandiyalı nazir Valtonen "Ermənistan və Azərbaycanın əldə etdiklərini tarixi anlaşma" adlandırdı.

Beynəlxalq diplomatik mustəvidə mühüm dönüş nöqtəsi hesab edilən ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsinin geosiyasi və hüquqi nəticələri çoxşaxəlidir və postmünaqişə dövrü diplomatik fəaliyyətlərdə dönüş nöqtəsi hesab edilə bilər.

Nəticə olaraq vurğulaya bilərik ki, sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi olan tarixi Vaşinqton razılaşmaları həmçinin suverenliyimizin beynəlxalq müstəvidə təsbitidir.

### ABŞ ilə münasibətlərdə keyfiyyətcə yeni mərhələ

Suverenliyimizin bərpası ABŞ ilə münasibətlərimizdə dönüş yaranması, ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qaldırılması üçün zəmin yaratdı. Prezident İlham Əliyevin hələ Prezident Trampın səlahiyyətlərinin icrasına başlamazdan əvvəl mətbuatda səsləndirdiyi ikitərəfli münasibətlərin keyfiyyətcə yeni səviyyəyə qaldırmaq təklifi Ağ Evdə yüksək dəyərləndirildi.

Enerji, rəqəmsal infrastruktur və təhlükəsizlik sahələrinin əhatə edən strateji tərəfdaşlıq münasibətlərinin yaradılması məqsədilə strateji İşçi Qrupu haqqında Anlaşma Memorandumu imzalandı. Prezident İlham Əliyevin məhz mükəmməl diplomatiyası sayəsində 907-ci düzəliş aradan qaldırıldı və Prezident Tramp birgə mətbuat toplantısında (Prezident İ.Əliyevə müraciətlə) bunu belə qiymətləndirdi: "Biz həmçinin müdafiə sahəsində Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əməkdaşlığa olan məhdudiyyəti aradan qaldırırıq. Bu, həm Sizin və həm də mənim üçün əhəmiyyətli məsələdir".

### Suverenliyimizin bərpası Brüssel-Bakı dialoqunun intensivləşməsinə zəmin yaratdı

İkinci Qarabağ müharibəsindən və suverenliyimizin bərpasından sonra yeni yaranmış reallıqlar şəraitində ABŞ ilə yanaşı, həm də Avropa İttifaqı ilə münasibətlərimizdə olan intensivləşmə və yaxşılaşma müşahidə olunur.

Azərbaycanın əsas ticarət tərəfdaşı olan Avropa İttifaqı siyasi münasibətlər müstəvisində zaman-zaman, xüsusən torpaqlarımız işğal altında olarkən Azərbaycana qarşı qərəzli mövqeyi ilə gündəmə gəlib. Avropa Parlamenti qərəzli mövqeyindən bu gün də əl çəkməyib. Amma şanlı zəfərimiz nəticəsində yaranmış yeni reallıqların üstünlükləri Brüsseldə də qəbul olunur və bu, xüsusi ilə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin ikinci kabinetinin ölkəmizə münasibətdə sərgilədiyi mövqedə müşahidə edilir. Bu kontekstdə genişlənməyə məsul komissarın ötən həftə Azərbaycana səfərinə son dövrlərdə Aİ rəsmiləri ilə Azərbaycan arasında intensivləşən səfərlər kontekstində qiymət vermək olar. Belə ki, mart ayında enerji komissarı, apreldə təhlükəsizlik məsələləri üzrə məsul komissar və vitse-prezident ölkəmizdə səfərdə olmuşdur. May ayında Prezident İlham Əliyevin Albaniyada Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Aİ-nin prezidenti Ursula fon der Lyayenlə görüşü baş tutmuş, avqustda isə dövlətimizin başçısı Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini Bakıda qəbul etmişdir. Bunlardan əlavə, Aİ-nin genişlənmə məsələləri üzrə komissarı ölkəmizə səfəri çərçivəsində işğaldan azad edilmiş ərazilərə, o cümlədən Ağdam rayonuna səfər etmiş və orada minatəmizləmə işləri ilə tanış olmuşdur. Bu, Aİ-nin Azərbaycana yönəlik siyasətində reallığı əks etdirən yanaşmanı qəbul etməsi üçün çox vacib məqamdır. Komissar "ruhlar şəhəri", "Qafqazın Xirosiması" kimi tanınan Ağdamla tanışlıq şəraitində Azərbaycanın məruz qaldığı işğalın real nəticəsini yerində gördü. Bununla yanaşı, genişhəcmli bərpa-quruculuq işləri ilə yerindəcə tanışlıq nəticəsində Azərbaycanın sülh gündəliyinin real nəticələrini qəbul etdi.

Ağdam və işğaldan azad edilmiş rayonlarımızın minalardan təmizlənməsi uzun vaxt və böyük resurs tələb edən məsələdir. Azərbaycan öz real imkanları ilə bərpa-quruculuq işlərini davam etdirir. Bu məsələlər eyni zamanda ikitərəfli və çoxtərəfli münasibətlər aspektində əməkdaşlıq üçün bir platformadır. Avropa İttifaqının postmüharibə dövründə barışıq istiqamətində geniş potensialı və təcrübəsi var. İkinci Dünya müharibəsindən sonra bu qurumun formalaşmasında iştirak edən 6 dövlət, ilk növbədə, müharibəyə səbəb ola biləcək resursları - kömür və polad sənayesinin idarəsini əlaqələndirmişlər. Bizim regionda isə belə əlaqələndirici və sülhə və sabitliyə xidmət edən məsələlər sırasında tranzit-nəqliyyat infrastrukturu layihələri, enerji sahəsində əməkdaşlıq yer alır.

Avropa İttifaqı ilə münasibətlərdə yer alan çox mühüm məqamlardan biri də logistika-nəqliyyat məsələsidir. Məlumdur ki, Qara dəniz Avropa İttifaqı ölkələrini Gürcüstan və Azərbaycan vasitəsilə Mərkəzi Asiya ilə birləşdirir. Avropa İttifaqının Mərkəzi Asiya ilə münasibətlərində isə intensivləşmə müşahidə olunur. Brüssel Mərkəzi Asiya ölkələrinə münasibətdə "Qlobal Gateway" (Qlobal keçid) təşəbbüsü çərçivəsində əməkdaşlıq təklif edib. 2021-ci ildə start verilən "Qlobal Gateway" layihəsinin 300 milyard avroluq büdcəsi var və beynəlxalq müstəvidə 90 layihəni əhatə edir. Aİ 2030-cu ilədək tranzit infrastrukturun yaradılması məqsədilə Mərkəzi Asiya ölkələrinə 10 milyard avro investisiya yatırmaq istəyir. Müəyyən xammalın, qiymətli metalların Mərkəzi Asiyadan ixracında maraqlı olan Avropa İttifaqı Mərkəzi Asiyadan xüsusi ilə hərb sənayesində ciddi ehtiyac duyduğu qiymətli metalların və digər xammalın sabit, alternativ yollarla idxalında maraqlıdır.

Avropa İttifaqı ilə Çin arasında intensivləşən ticari münasibətlərdə tranzit ölkə kimi Azərbaycan Orta dəhlizin vacib hissəsi kimi mühüm rol oynayır. Bu həmçinin Zəngəzur dəhlizi üçün uğurlu perspektiv vəd edir. İstənilən halda Avropa İttifaqının yeni reallıqları nəzərə alaraq, öz siyasətində dəyişiklik etməsinin tam zamanıdır və bu istiqamətdə Aİ-nin fəaliyyət sərgilədiyi müşahidə olunur. Həmin reallığı yaradan isə Azərbaycanın sülh gündəliyi və yeni reallıq şəraitində əməkdaşlığı müəyyən edən Prezident İlham Əliyevin strateji vizyonudur. Bakının təklif etdiyi əməkdaşlıq platformasında ayrı-ayrı aktorlar yer almaq istəyir və onun üçün də Bakıya səfərlər intensivləşib.

### Kommunikasiyaların bərpası sürətlənib

Vaşinqton Sülh sammitindən sonra Ermənistan və Azərbaycan arasında kommunikasiyaların bərpası perspektivləri də artıq reallığa çevrilməkdədir. Üçtərəfli Vaşinqton Birgə Bəyannaməsinin Zəngəzur dəhlizinə (TRIPP) dair ilk beynəlxalq sənəd də hesab etmək olar. Belə ki, Azərbaycan Prezidentinin Azərbaycanın əsas hissəsi və onun Naxçıvan bölgəsi arasında maneəsiz bağlantının təmin edilməsi ilə bağlı prinsipial mövqeyi Birgə Bəyanatda əksini tapmışdır. Bəyannamədə TRIPP kimi qeyd edilən layihənin ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasında əhəmiyyəti bir daha təsdiq olunmuşdur.

Bu mənada Zəngəzur dəhlizi (TRIPP) təkcə Cənubi Qafqazın deyil və onun sərhədlərini aşan daha böyük regionun nəqliyyat-logistika xəritəsini dəyişə biləcək strateji layihədir. Bir müqayisə aparmaq istərdim: Hormuz, Bab el Mandab, Malakka boğazlarının, və ya Süveyş kanalının qlobal dəniz ticarəti yollarının əlaqələndirilməsində oynadığı rolu vaxt gələcək Zəngəzur dəhlizi (TRIPP) quru nəqliyyatı ticarət yollarında, Şərq-Qərb Orta dəhliz və Şimal-Cənub dəhlizində oynayacaqdır.

Yeni yaranmış geosiyasi reallıq şəraitində Avropa İttifaqının da Azərbaycanla əməkdaşlığına yeni perspektivdən yanaşması özünü göstərir. Son vaxtlar Brüssel və Bakı arasında həyata keçirilən yüksəksəviyyəli dialoq, Aİ Komissiyasının prezidenti Ursula fon der Lyayenin ikinci kabinetinin Azərbaycanla əməkdaşlığın intensivləşdirilməsinə göstərdiyi maraq bunun təsdiqidir.

Avropa İttifaqı eyni zamanda Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-ticari münasibətlərini "Global Gateway" (Qlobal keçid və ya körpü) layihəsi çərçivəsində yeni səviyyəyə qaldırmağı planlayıb. Avropa İttifaqının qlobal miqyasda infrastruktur, "yaşıl enerji" və dayanıqlı inkişaf sahəsində əməkdaşlığı təşviq etmək üçün başlatdığı "Global Gateway" təşəbbüsü Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" strategiyasına müəyyən məqamlarda alternativ kimi təqdim edilir. Amma Orta dəhliz və Zəngəzur seqmentindən istifadəyə hər iki layihədə yer alan bütün potensial tərəfdaşlar maraq göstərdiyindən bu maraqlar "nəticəsi sıfır oyun" yox, məhz "vin-vin" strategiyası çərçivəsində uzlaşdırıla bilər. Prezident İlham Əliyevin Çinin Tiencin şəhərində keçirilmiş "ŞƏT plyus" formatında görüşdəki çıxışında vurğuladığı kimi: "Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".

Suverenliyimizin bərpasından sonra Prezident İlham Əliyevin hərbi, siyasi və diplomatik səyləri və strateji vizionu əsasında formalaşdırılan Azərbaycanın sülh gündəliyi həm regional, həm də qlobal miqyasda, bütün güc mərkəzləri tərəfindən diqqətlə izlənilir. Sülh gündəliyinin qayəsində yer alan mərkəzi faktorları qısaca belə səciyyələndirmək olar:

- Azərbaycanın coğrafi mövqeyinin üstünlükləri, resursları və nəqliyyat-infrastruktur layihələri vasitəsilə həyata keçirdiyi sabitləşdirici funksiya və rol;
- Şanlı Zəfərimizdən sonra regionda yaranmış yeni siyasi reallığa uyğun təklif edilən və geniş coğrafi məkanı əhatə edən çoxşaxəli əməkdaşlıq imkanları;
- İkitərəfli əsasda və çoxtərəfli platformalarda inkişaf etdirilən tərəfdaşlıqlarla yeni dünya düzəninə aparan proseslərdə mövqeyimizin gücləndirilməsi.

2023-cü ildə Azərbaycanın dövlət suverenliyinin bərpası Azərbaycan Prezidentinin irəli sürdüyü sülh gündəliyinin real nəticələrə yol açmasına ciddi töhfə verdi. Dayanıqlı sülhün və sabitliyin bərqərar olması Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində səylər daha da intesivləşdi.

8 avqust 2025-ci ildə Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Sülh sammiti keçirildi. Zirvə görüşünün nəticəsində liderlərin imzaladığı Birgə Bəyannamə posmüharibə dövrü çağırışların həlli üçün yol xəritəsi də hesab oluna bilər. ABŞ-nin qoşulduğu və Azərbaycan və Ermənistanın ATƏT-in fəaliyyətdə olan sədrinə ünvanladığı müraciətinə uyğun olaraq, keçmiş münaqişənin qalığı olan ATƏT-in Minsk prosesi və əlaqəli strukturları 1 sentyabr tarixində ATƏT Nazirlər Şurasının qərarı ilə ləğv edildi. Azərbaycan və Ermənistan sülh və dövlətlərarası münasibətlərin yaradılması haqqında sazişin mətni paraflandı.

Bu tarixi sülh fürsətinin əldən verilməməsi, sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasında ərazi iddialarının aradan qaldırılmasını zəruri edən islahatın aparılması labüddür.

*Rizvan NƏBİYEV,*
*Milli Məclisin deputatı,*
*siyasi elmlər doktoru*

# Azərbaycanda insan potensialına əsaslanan innovativ idarəçilik metodları

Son illərdə Azərbaycan Respublikasında sosial-iqtisadi həyatın misilsiz bir dinamizmlə inkişaf etməsi dövlətimizin qüdrətini və xalqımızın iradəsini bariz şəkildə nümayiş etdirir. Əhalinin rifah səviyyəsinin ardıcıl yüksəldilməsi, müxtəlif istiqamətlərdə həyata keçirilən genişmiqyaslı iqtisadi və sosial layihələr, həm paytaxtda, həm də regionlarda icra olunan möhtəşəm quruculuq və abadlıq tədbirləri milli inkişaf strategiyamızın uğurlu nəticələrinin parlaq təzahürüdür. Sənaye, kənd təsərrüfatı və xidmət sektorunda yeni müəssisələrin fəaliyyətə başlaması, nəhəng infrastruktur layihələrinin - müasir binaların, möhtəşəm körpülərin, strateji nəqliyyat şəbəkələrinin inşası - Azərbaycanın iqtisadi potensialının sürətli artımını və dövlətimizin möhkəmlənən imkanlarını əks etdirir. Bu proseslər göstərir ki, Azərbaycan bu gün sadəcə regionda deyil, həm də beynəlxalq miqyasda söz sahibinə çevrilmiş, özünün müasir və davamlı inkişaf modelini yaratmışdır. Azərbaycan Respublikası dünya təcrübəsindən bəhrələnərək müasir idarəetmə modellərini tətbiq edir, dövlət quruculuğu prosesini mütəmadi şəkildə inkişaf etdirir. XXI əsrin çağırışlarına uyğun müəyyən edilmiş prioritetlər ölkəmizin gələcəyə inamla irəliləməsini təmin edir. Bütün bu nailiyyətlər, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin uzaqgörən, məqsədyönlü və praqmatik dövlət idarəçiliyi strategiyasının bəhrəsidir. Məhz bu strateji kursun nəticəsində Azərbaycan beynəlxalq miqyasda hökm sürən siyasi və iqtisadi böhran şəraitində belə, sabit inkişaf yolunu qoruyub saxlamış, regional və qlobal müstəvidə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Milli inkişafımızın başlıca dayaqlarından biri isə insan kapitalının inkişafıdır. Azərbaycan dövləti bu sahədə yalnız təhsil sistemində əldə olunan uğurlarla kifayətlənməyərək, əmək bazarının səmərəli təşkili və məşğulluğun təmininə xüsusi diqqət yetirir. Çünki bilik və bacarıqların real iqtisadi dəyərə çevrilməsi, ilk növbədə, əmək bazarının düzgün qurulması ilə mümkün olur. Azərbaycan Respublikasında insan potensialının inkişafına xidmət edən siyasətin strateji istiqamətləri müəyyən olunmuş və ardıcıl şəkildə həyata keçirilir. Bu siyasət yalnız ölkə daxilində sosial-iqtisadi tərəqqiyə zəmin yaratmır, həm də Azərbaycanın beynəlxalq aləmdə müasir, güclü və etibarlı dövlət kimi tanınmasına mühüm töhfə verir. Azərbaycan Respublikasında insan potensialının inkişafına xidmət edən siyasətin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:




**Sxem 1. İnsan potensialının inkişafına xidmət edən siyasətin əsas istiqamətləri**

Azərbaycan Respublikasında məşğulluq və əmək bazarının təşkili sahəsində həyata keçirilən siyasət yalnız milli inkişafın təmin olunmasına deyil, həm də 2015-ci ildə BMT Baş Assambleyası və Dünya Sammitində qəbul edilmiş 2030-cu il Davamlı İnkişaf Məqsədlərinə nail olunmasına mühüm töhfə verir. Son illərdə ölkənin insan inkişafı sahəsində əldə etdiyi uğurların əsasında müasir və innovativ idarəetmə texnologiyalarının tətbiqi dayanır. Davamlı insan inkişafı naminə dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və özəl sektorun vahid milli proqramlar və layihələr çərçivəsində birgə fəaliyyəti artıq reallığa çevrilmişdir və bu əməkdaşlıq gələcək uğurların da təminatçısı olacaqdır. Bu kontekstdə Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası ölkədə davamlı inkişafın təmin olunmasında strateji əhəmiyyət daşıyan yeni mərhələ kimi çıxış edir.

Dövlət idarəçiliyi dövlətin əsas sosial-siyasi funksiyalarından biri olaraq, ictimai həyatın bütün sahələrinin tənzimlənməsində, əhalinin rifahı və məmnunluq səviyyəsinin yüksəldilməsində, həmçinin peşəkar və səmərəli dövlət qulluğunun formalaşdırılmasında mühüm rol oynayır. İdarəetmə öz mahiyyətinə görə spesifik sosial fəaliyyət növüdür və o, cəmiyyətin tələbatlarını və fəaliyyət formalarını uzlaşdıraraq inkişaf proseslərinin tənzimlənməsinə yönəlir və hər dövrün obyektiv zərurətlərindən irəli gələn modellər və metodlar əsasında həyata keçirilir. Müasir dövrdə dövlətlərin idarəetmə sistemlərində aparılan modernləşmə yeni idarəetmə modellərinin tətbiqini zəruri etmişdir. Bu gün optimal menecment metodları, şəffaflıq, insan kapitalının səmərəli istifadəsi, ictimai rəyin nəzərə alınması və vətəndaş məmnunluğunun təmin olunması idarəetmənin əsas prioritetləri kimi çıxış edir. Sərt reqlamentlərə əsaslanan ənənəvi modellərdən fərqli olaraq, yeni idarəetmə yanaşmaları daha çevik və vətəndaşa yönümlü xarakter daşıyır.

Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl islahatlar dövlət idarəçiliyinin təkmilləşdirilməsinə, peşəkar və məsuliyyətli dövlət qulluğu sisteminin formalaşdırılmasına, həmçinin vətəndaş - məmur münasibətlərində yeni yanaşma tərzinin təşəkkülünə xidmət edir. Bu islahatların başlıca məqsədi dövlət qulluğunu xalqa xidmət prinsipi əsasında təşkil etmək, dövlətinə və xalqına sadiq, məsuliyyətli və yaradıcılıq potensialına malik kadrların inkişafını təmin etməkdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan sonrakı dövrdə bu sahədə geniş qanunvericilik bazası yaradılmışdır. Aparılan islahatlar nəticəsində müasir dövlət qulluğu sistemi formalaşmış, dövlət qulluqçularının peşəkarlığının artırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, 2025-ci il yanvarın 1-nə ölkədə dövlət qulluqçularının sayı 27,4 min nəfər olub ki, onların da 30,3 faizini qadınlar, 69,7 faizini isə kişilər təşkil edir.  Dövlət qulluqçularının təxminən yarısı 10 ildən artıq iş stajına malikdir. Yaş baxımından isə əsas hissəsini 30-50 yaş arası şəxslər təşkil edir. Yaşı 65-dən çox olan dövlət qulluqçuları isə 2 faiz təşkil edir.  2024-cü ildə dövlət qulluqçularının orta aylıq nominal əməkhaqqı əvvəlki ilə nisbətən 2 faiz artaraq 1971,0 manat təşkil edib.




**Diaqram 1. 2025-ci il yanvarın 1-nə dövlət qulluğunun təsnifatlar üzrə inzibati və yardımçı vəzifələr tutmuş işçilərin bölgüsü, yekuna görə**




**Diaqram 2. 2025-ci il yanvarın 1-nə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin yaş qruplarına görə bölgüsü, yekuna görə**




**Diaqram 3. 2025-ci ilin yanvar ayının 1-i vəziyyətinə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin cins üzrə bölgüsü, faizlə**




**Diaqram 4. 2025-ci il yanvarın 1-nə dövlət qulluğunun vəzifələrini tutmuş işçilərin yaş qruplarına görə bölgüsü, hər bir təsnifatın yekununa görə faizlə**

Diaqramlardan da göründüyü kimi, dövlət qulluqçularının 7,4 faizi dövlət orqanlarında inzibati vəzifələrin ali - 3-cü təsnifatları, 3,7 faizi 4-cü təsnifatı, 11,6 faizi 5-ci təsnifatı, 8,5 faizi 6-cı təsnifatı, 46,6 faizi 7-ci təsnifatı, 22,2 faizi isə dövlət qulluğunun yardımçı vəzifələri üzrə işləmişdir. Dövlət qulluqçularının 6,4 faizi 1 ilədək, 24,1 faizi 1 ildən 5 ilədək, 22,9 faizi 5 ildən 10 ilədək, 18,6 faizi 10 ildən 15 ilədək, 28,0 faizi isə 15 il və daha çox qulluq stajına malikdir. Dövlət qulluqçularının 2,8 faizini 25 yaşadək, 12,5 faizini 25-29 yaşda, 18,2 faizini 30-34 yaşda, 16,1 faizini 35-39 yaşda, 12,8 faizini 40-44 yaşda, 9,9 faizini 45-49 yaşda, 7,6 faizini 50-54 yaşda, 8,4 faizini 55-59 yaşda, 9,7 faizini 60-64 yaşda, 2,0 faizini 65 və yuxarı yaşda olan şəxslər təşkil edir.

Tarixə nəzər saldıqda görürük ki, 2003-cü il oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqın yüksək faizlə etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildiyi andan ölkəmizin inkişafında yeni bir mərhələ başladı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik, çoxvektorlu və milli maraqlara əsaslanan siyasət nəticəsində "güclü dövlət" konsepsiyası reallaşdırıldı, Azərbaycan regionun nüfuzlu və güclü aktoruna çevrildi. Həmin dövrdə, 2003-cü ildə dövlət qulluğu sahəsində islahatlara başlanıldı. Bu islahatlar Avropa İttifaqının TACİS (Technical Assistance for the Commonwealth of Independent States) proqramı çərçivəsində davam etdirildi və Azərbaycan Respublikası Prezident Administrasiyası ilə (o dövrə Prezident Administrasiyasının adı Prezident Aparatı adlanırdı) 12 nazirlikdə rəhbər kadrları əhatə edən vahid informasiya mərkəzinin yaradılması istiqamətində işlər aparıldı. Layihə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun icrasının strategiyasının işlənib hazırlanmasını, Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin təşkili, dövlət qulluqçularının mərkəzləşmiş məlumat sisteminin formalaşdırılması və dövlət idarəetməsi sahəsində islahatlar strategiyasının hazırlanmasını nəzərdə tuturdu. 2003-cü ildə həmçinin "İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunun təsdiq edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı imzalandı. Bu fərmanla Prezidentin nomenklaturasına aid edilən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi təmin edildi. Bundan əlavə, həmin dövrdə dövlət qulluqçularının sosial təminatının gücləndirilməsi məqsədilə "Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında", 2004-cü ildə isə "Dövlət qulluqçularının pensiya təminatı haqqında" fərmanlar imzalandı.

Dövlət qurumlarının fəaliyyətində şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının gücləndirilməsi məqsədilə 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun qəbul edilmişdir. Həmçinin, korrupsiya ilə əlaqədar hüquqpozmaların qarşısının alınması, aşkar edilməsi və nəticələrinin aradan qaldırılması məqsədilə həmin ildə 2004-2006-cı illər üçün Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramı da təsdiq edildi. Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 2007-ci ildə Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planı təsdiq edildi. Sonrakı illərdə "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı", 2020-ci ildə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Plan"ları təsdiq edildi. Prezident İlham Əliyev korrupsiyaya qarşı mübarizəni ən prioritet məsələ kimi dəyərləndirməkdə Azərbaycanın korrupsiyadan azad olması və dünyanı bürümüş bu sosial bəla ilə mübarizədə ölkəmizin öncüllər sırasına çıxması  üçün mühüm addımlar atdı. 2022-ci il aprelin 4-də Prezident İlham Əliyevin sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edildi. Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Yeni dövlət idarəçiliyi texnologiyalarının tətbiqi, dövlət inkişafının səmərəli idarə olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu proses yalnız yüksəkixtisaslı dövlət qulluqçularının mövcudluğu ilə məhdudlaşmır, həm də idarəetmənin institusional əsaslarının gücləndirilməsini, müasir idarəetmə alətlərinin tətbiqini və dövlət xidmətlərinin effektivliyinin artırılmasını zəruri edir. Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli qərarına uyğun olaraq, dövlət idarəçiliyi sahəsində prioritet istiqamətlər müəyyən edilmiş və bu istiqamətlər 2030-cu ilə qədər ölkənin inkişaf strategiyasının əsas hədəfləri kimi təsbit olunmuşdur. Bu baxımdan dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin düzgün təşkili yalnız cari dövr üçün deyil, həm də uzunmüddətli perspektivdə ölkənin sosial-iqtisadi inkişafını təmin edən həlledici amillərdən biri kimi qiymətləndirilir. Onların əsas funksiyası dövlətin idarəetmə qabiliyyətini artırmaq, vətəndaşların rifahını yüksəltmək, milli təhlükəsizliyi möhkəmləndirmək və gələcək nəsillərin davamlı inkişaf imkanlarını təmin etməkdir. Eyni zamanda dövlət idarəçiliyi sahəsində innovasiyaların fasiləsiz tətbiqi zəruridir. Bu, idarəetmə mexanizmlərinin çevikliyini artırır, dövlət xidmətlərinin keyfiyyətini yüksəldir və qlobal çağırışlara uyğunlaşma qabiliyyətini gücləndirir. Beləliklə, innovasiya yönümlü idarəetmə yanaşmaları dövlətin bütün fəaliyyət sahələrində - iqtisadiyyat, sosial siyasət, təhlükəsizlik və digər istiqamətlərdə - inkişafın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir.

Dövlət idarəçiliyində innovativ yanaşmaların tətbiqi müasir dövrün əsas tələblərindən biridir və bu, həm qlobal miqyasda, həm də Azərbaycan Respublikasında prioritet istiqamət kimi qəbul olunur. Zamanın çağırışlarına uyğun olaraq idarəetmədə yeni texnologiyaların, müasir metodologiyaların və yaradıcı həllərin tətbiqi dövlətin səmərəliliyinin artırılması, ictimai idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Dövlət qulluğu sistemində innovativ ideyaların formalaşması və həyata keçirilməsi yalnız ayrı-ayrı dövlət qurumlarının təşəbbüsü ilə məhdudlaşmır. Bu proses, eyni zamanda müvafiq dövlət orqanlarının qəbul etdiyi qanunvericilik aktları vasitəsilə normativ-hüquqi müstəvidə təmin olunur. Beləliklə, idarəetmədə innovasiyaların tətbiqi həm institusional, həm də hüquqi mexanizmlərin qarşılıqlı vəhdəti əsasında gerçəkləşdirilir.

Azərbaycan Respublikasında innovativ idarəetmənin təşviqi məqsədilə fəaliyyət göstərən bir sıra dövlət qurumları və təşkilatları mövcuddur. Bu qurumların fəaliyyəti yeni ideyaların meydana çıxmasına, səmərəli idarəçilik təcrübələrinin tətbiqinə, informasiya-kommunikasiya texnologiyalarının dövlət idarəçiliyinə inteqrasiyasına və nəticə etibarilə dövlət xidmətlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına şərait yaradır. Bununla yanaşı, qəbul edilmiş qanunvericilik aktları bu təşəbbüslərin institusional əsaslarını möhkəmləndirir, hüquqi çərçivəsini müəyyən edir və dövlət innovasiya siyasətinin reallaşdırılmasına xidmət edir. Ümumilikdə, Azərbaycanda dövlət innovasiya siyasətinin həyata keçirilməsini təmin edən mexanizmlər kompleks xarakter daşıyır. Onlar idarəetmədə islahatların aparılmasına, dövlət xidmətlərinin səmərəliliyinin yüksəldilməsinə, şəffaflığın və hesabatlılığın gücləndirilməsinə yönəlmişdir. Bu mexanizmləri sxematik şəkildə təqdim etməklə, onların qarşılıqlı əlaqələrini, funksional istiqamətlərini və praktiki nəticələrini daha aydın təsəvvür etmək mümkündür.




**Dioqram 5. İnnovasiya siyasətinin reallaşma mexanizmi**

Azərbaycan Respublikasının innovasiyalarla bağlı qanunvericilik aktlarını qəbul edən ali orqanı Azərbaycan Respublikasının Milli Məclisidir. Qəbul edilmiş qanunların icrası yolu ilə müvafiq şəraiti formalaşdıran orqanlar isə Prezident Administrasiyası və Nazirlər Kabineti, daha sonra müvafiq nazirliklərdir. İstənilən qanun, bir qayda olaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir, Respublika Prezidentinin sərəncamı ilə qüvvəyə minir, Nazirlər Kabineti xətti ilə müvafiq nazirliklər və dövlət qurumları tərəfindən icra olunur.

Məlum olduğu kimi, vətəndaş cəmiyyətinin təşəkkülü dövlət idarəetmə orqanları ilə vətəndaşlar arasındakı münasibətlərin mütərəqqi inkişafı, dövlət orqanlarının fəaliyyətində səmərənin artırılması üçün yeni mexanizmləri müəyyənləşdirmək zərurətini də üzə çıxardı. Bunun üçün ardıcıl islahatlara başlandı. Ölkə Prezidentinin siyasi iradəsilə "vətəndaşa, insan faktoruna yönümlü" müasir idarəetmə modelinin formalaşdırılması, korrupsiyanın aradan qaldırılması üçün kompleks tədbirlər həyata keçirildi.

Qurulan yeni modeldə "dövlət qulluğu" anlayışı "cəmiyyətə, xalqa qulluq" mənasını ifadə edir, vətəndaşla məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzi formalaşdırılır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də daim öz çıxışlarında dövlət qulluqçularından gözlənilən və tələb edilən davranış qaydalarını qeyd edir: "Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir". Digər bir çıxışında isə cənab Prezident dövlət məmurlarının fəaliyyətinin əsas prinsiplərini qeyd edərək demişdir: "Hər bir dövlət məmuru öz məsuliyyətini dərk etməlidir. Hər bir dövlət məmuru təmiz işləməlidir, xalqla bir yerdə olmalıdır, təvazökar, işgüzar və vətənpərvər olmalıdır, rüşvət almamalıdır, özünü xalqdan üstün tutmamalıdır, işlədiyi bölgələrdə, sahələrdə hörmət qazanmalıdır və vətənə sadiq, sədaqətli olmalıdır. Heç bir xarici dairənin təsiri altına düşməməlidir. Bax budur əsas prinsiplər. Hər bir dövlət məmurundan tələb edirəm ki, bu prinsiplərə əməl etsin. *Dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidirlər".* Qeyd edilən sitat dövlət qulluğunda vətəndaş məmnunluğuna nə qədər əhəmiyyət verildiyini bir daha təsdiq edir.

Respublikamızın müstəqilliyinin bərpa olunmasından keçən dövr ərzində dövlət idarəetməsi və dövlət qulluğu sahəsində həyata keçirilən islahatlar fonunda fundamental dəyişikliklər və inkişaf proseslərini bu cür ümumiləşdirə bilərik: Azərbaycanın beynəlxalq təcrübəyə və milli xüsusiyyətlə əsaslanan özünəməxsus dövlət qulluğu sistemi formalaşmışdır, dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması və onların peşəkarlıq səviyyələrinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmışdır, dövlət qulluğu sisteminin qanunverici, normativ-hüquqi bazası formalaşdırılmış, dövlət qulluğuna qəbul sahəsində şəffaflıq prinsiplərinin üstünlüyünə əsaslanan bir sistem təşkil edilmiş, dövlət orqanlarının status və funksiyalarına uyğun olaraq kateqoriyaları müəyyən edilmiş, dövlət qulluğu vəzifələrinin təsnifatlar üzrə bölgüsü aparılmış, dövlət qulluğu sahəsində nəzarət və tənzimləməni həyata keçirən Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılmış, dövlət qulluqçuları haqqında mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün Dövlət Qulluqçularının Reyestri formalaşdırılmışdır.

Müasir dövrdə dövlət idarəçiliyinin köhnəlmiş stereotiplərə əsaslanan fəaliyyət prinsipləri ilə cəmiyyətin inkişafının yeni mərhələsinin tələbləri arasında ziddiyyətlər meydana çıxır. Bu ziddiyyətlərin aradan qaldırılması isə ilk növbədə, dövlət qulluğunda çalışan şəxslərin bilik, bacarıq və vərdişlərinin mütəmadi şəkildə yenilənməsini və dərinləşdirilməsini tələb edir. Digər sözlə, fasiləsiz təhsil və peşəkar inkişaf dövlət qulluqçularının səmərəli fəaliyyət göstərməsi üçün əsas şərtlərdən biridir. Belə şəraitdə dövlət qulluqçularının yenidən hazırlığı və ixtisaslarının artırılması məsələsi xüsusi aktuallıq kəsb edir. Bu, yalnız kadr siyasətinin mühüm istiqamətlərindən biri deyil, həm də dövlət idarəçiliyinin davamlı inkişafını təmin edən strateji faktor kimi çıxış edir. Dövlət qulluqçularının hazırlığı onların ixtisas sahələrinə uyğun bilik və bacarıqlarının artırılmasına, karyera yüksəlişi imkanlarının genişləndirilməsinə və peşəkar fəaliyyətlərinin səmərəliliyinin artırılmasına xidmət etməlidir. Peşəkarlığın yüksəldilməsi, dövlət qulluqçularının vəzifə səlahiyyətlərini effektiv şəkildə icra etməsinə, qarşıya qoyulan məqsədlərə optimal həll yolları tapmasına, dövlət idarəçiliyi vəzifələrinin keyfiyyətli və yüksək səviyyədə yerinə yetirilməsinə şərait yaradır. Bununla yanaşı, dövlət qulluqçularının fəaliyyətində yalnız texniki bilik və idarəetmə bacarıqları deyil, həm də vətəndaş təəssübkeşliyi, işgüzarlıq, mənəvi-əxlaqi keyfiyyətlər və ictimai məsuliyyət mühüm rol oynayır. Bu baxımdan peşəkarlıq yalnız bilik və bacarıq göstəricisi deyil, həm də dəyərlər sistemi, fəaliyyətin nəticəliliyi və səmərəliliyinin əsas indikatoru kimi çıxış edir.

Dövlət qulluqçularının hazırlığı və yenidən hazırlığı sahəsində təhsil imkanlarının formalaşdırılması və bu imkanların məqsədyönlü şəkildə səfərbər edilməsi strateji əhəmiyyət kəsb edir. Dövlət qulluğu sistemində insan resurslarının formalaşması və təkmilləşdirilməsi mürəkkəb, eyni zamanda cəmiyyətin inkişafı üçün həyati vacib bir prosesdir. Bu istiqamətdə aşağıdakı fəaliyyətlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilə bilər:

- dövlət idarəçiliyi sahəsində zəruri bilik və bacarıqların formalaşdırılması;
- kadrların peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və fasiləsiz inkişafının təmin edilməsi;
- kadrların bacarıq və ixtisaslarına uyğun şəkildə seçilməsi və səmərəli yerləşdirilməsinin təşkil edilməsi;
- dövlət qulluğu sistemində çalışan kadrların bilik və təcrübələrinin artırılması, fəaliyyətlərinin obyektiv qiymətləndirilməsi;
- müasir tələblərə cavab verən kadr hazırlığı sisteminin formalaşdırılmasında dövlətin əsas subyekt kimi fəal iştirakının təmin olunması;
- kadr potensialının keyfiyyətcə qiymətləndirilməsinə imkan verən müasir statistik və analitik bazanın yaradılması;
- dövlət qulluqçularının sosial təminatının, xüsusilə də əməkhaqqı sisteminin təkmilləşdirilməsi.

Bu istiqamətlər üzrə aparılacaq fəaliyyət yalnız dövlət qulluqçularının peşəkar inkişafına deyil, həm də dövlət idarəçiliyinin effektivliyinə və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinə birbaşa təsir göstərir. Dövlət qulluğunda çalışan insanlar cəmiyyətin inkişafı və tərəqqisinin təmin edilməsində mühüm rol oynayır, dövlət hakimiyyəti strukturları ilə vətəndaş cəmiyyəti arasında əlaqələndirici halqa funksiyasını yerinə yetirirlər. Bu isə dövlət qulluqçularının fəaliyyətini sadəcə inzibati icraçılıqdan çıxararaq, onları ictimai kommunikasiya və idarəetmənin aparıcı subyektlərinə çevirir. Son illərin beynəlxalq təcrübəsi isə, xüsusilə də inkişaf etmiş dövlətlərin idarəçilik modelləri göstərir ki, dövlət qulluqçularının öz potensiallarını tam reallaşdıra bilməsi, onların peşəkar və şəxsi inkişaf imkanlarının genişləndirilməsi dövlətin qlobal müstəvidə mövqeyini müəyyən edən əsas amillərdən birinə çevrilmişdir. Bu mənada dövlət qulluqçularının peşəkar inkişafına yönəlmiş siyasət yalnız milli idarəetmənin səmərəliliyini artırmaqla kifayətlənmir, həm də dövlətin beynəlxalq sistemdəki mövqeyini və rəqabət qabiliyyətini gücləndirir.

***Kəramət QƏNBƏROV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, Sənədlərlə iş və arxiv şöbəsinin müdiri***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



# Düşmən üzərində qəti qələbələrlə böyük zəfərə...



**Gündəlik işləri ilə məşğul olan, halal zəhməti ilə ailəsini dolandıran, özünün, doğmalarının gələcəyi ilə bağlı xoş xəyallar quran, arzularla, ümidlərlə yaşayan, el-obasına gərəkli olmağa çalışan, yurddaşlarının kədərinə şərik olan, dərdinə yanan, sevincini bölüşən insanlar idilər. Köhnə qəbiristanlıqlarında ulularının məzarları vardı. "Həyatın sonu budur", - deyirdilər. Və göz açdıqları həmin yerlərdə bir gün özlərinin də son mənzilləri olacaqlarına inanırdılar...**

## Beşikdən əbədiyyətə uzanan yol

Bütün azərbaycanlılar kimi onlar - qarabağlılar və zəngəzurlular da torpağa bu cür bağlı idilər. Doğma yurd onlar üçün də beşikdən məzara deyil, beşikdən əbədiyyətə uzanan yol idi.

Başqalarının evində, ocağında, var-dövlətində, obasında gözləri yox idi. Süfrələri açıq idi. Qapılarını dost kimi döyən hər kəsi buyur deyib, başa keçirə bilərdilər. Bir şərtlə ki, müqəddəs tutduqları evinə, ocağına, obasına kəm gözlə baxan olmasın. 1980-ci illərin sonlarından etibarən Qarabağda erməni quldurlarının hədəfə aldıqları Azərbaycanın belə dinc sakinləri idilər.

Əvvəl dava-dalaşla başladıqları, getdikcə şiddətli münaqişələrə çevridikləri bu hadisələr, əslində böyük məkrli planın bir hissəsi idi. Qəsbkar ermənilər bu plan üzrə fəaliyyət göstərməklə ələ keçirdikləri Azərbaycanın əzəli torpaqlarında özlərinə "dövlət" yarada bilmişdilər. O zaman da - XX əsrin sonlarında, məkrli planlarını təkbaşına həyata keçirməmişdilər. Havadarlarından aldıqları hər cür yardımlar onları həm arxayınlaşdırır, həm də gücləndirirdi.

Sovet hökumətinin süquta doğru getdiyi vaxtlarda erməni daşnaklarının fəallaşması, Qarabağı münaqişə ocağına çevirməsi eyni ssenari üzrə başladı və davam etdi. Yenə də Azərbaycanın dinc, günahsız sakinlərinə qarşı amansızlıqla hücuma keçdilər. SSRİ rəhbərliyi ermənilərin törədəcəkləri dəhşətli faciələrin qarşısında əliyalın qoymaq üçün qabaqcadan azərbaycanlıların köhnə ov tüfənglərini belə müsadirə etdi. Azğınlaşmış quldurlara isə müasir silah-sursat, hərbi texnika verdi. Münaqişəni alovlandıraraq böyük bir savaşa çevirən ermənilər Birinci Qarabağ müharibəsində minlərlə uşağı, qadını, qocanı, gənci yalnız azərbaycanlı olduğu üçün dəhşətli işgəncələrlə qətlə yetirdi, əlil qoydu. Əsir götürdükləri yurddaşlarımıza zülm etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdikləri soyqırımı isə nəinki azərbaycanlıların bütün insanlığın faciəsi oldu.

1994-cü ildə atəşkəs elan olunsa da, Ermənistan heç zaman öz təcavüzkar siyasətindən əl çəkmədi, insani dəyərləri, beynəlxalq hüquq və konvensiyaları heçə sayaraq azərbaycanlılara qarşı terror əməllərini davam etdirdi. Beləliklə, atəşkəs dövründə də Azərbaycan Ordusunun mövqeləri Ermənistan silahlı qüvvələri tərəfindən iri çaplı silahlarla intensiv atəşə tutuldu. Əsgər və zabitlərimiz şəhid oldu. Hətta təmas xəttinə yaxın olmayan ərazilərimizdə belə, mülki insanlarımız öz evində, yurdunda qətlə yetirildilər.

Azərbaycan dövlətinin və xalqının sülh istəyinə və səylərinə Ermənistanın verdiyi cavab belə idi. Buna baxmayaraq, bir sıra dövlətlər və təşkilatlar rəsmi İrəvana doğru yolu göstərməkdənsə, onu cinayət əməllərindən çəkindirməkdənsə, dəstəkləyirdilər.

## Erməni faşizminin bitməyən "iştah"ı

Cinayətkarlığına görə cəzasız qalan, 30 ilə yaxın əsarətdə saxladığı Azərbaycanın iyirmi faiz ərazisini geri qaytarmaq, sülh müqaviləsi imzalamaq niyyətində olmayan Ermənistan 2020-ci il sentyabrın 27-də yenidən təxribat törətdi. Səhər saat 6:00 radələrində Ermənistan silahlı qüvvələri növbəti dəfə iriçaplı silahlardan, minaatanlardan, müxtəlif artilleriya qurğularından istifadə etməklə təmas xəttində yerləşən kəndlərimizə, hərbi mövqelərimizə genişmiqyaslı hücumlar təşkil etdi. Beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının qaydalarını kobud surətdə pozaraq, Gəncə, Mingəçevir şəhərlərində mülki əhalinin yaşadığı məntəqələri hədəfə aldılar, uzaq və yaxınmənzilli artilleriya qurğularından raket atəşinə tutdular. Yenə də Azərbaycanın mülki şəxsləri arasında həlak olanlar və yaralananlar oldu, dinc əhaliyə məxsus evlər dağıdıldı, təsərrüfatlara ciddi ziyan dəydi.

O gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutduqlarını bildirdi: "Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nətcəsində düşmənin bir çox hərbi texnikası sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Bu, işğalçı Ermənistanın Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək niyyətinə, illər boyu bu istiqamətdə gördüyü böyük işlərə, apardığı müzakirələrə, mücadilələrə növbəti və dəyişməz cavabı idi.

Həmin gün Azərbaycanın bütün bölgələrində eyni ovqat vardı. Hər kəs həyacanla, intizarla televiziya ekranlarından gözlərini bir an belə ayırmadan dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müraciətini dinləyirdi. İlham Əliyev Ermənistanın davamlı olaraq həyata keçirdiyi təxribatları diqqətə çatdırdı. Azərbaycan heç bir təxribata əl atmadığını, sadəcə olaraq öz maraqlarını müdafiə etdiyini, öz mövqeyini dəstəklədiyini və öz siyasətini alnıaçıq apardığını vurğuladı: "Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar və qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam və qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq hərbi təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıbdır".

## İkinci Qarabağ müharibəsinin hər günü qəhrəmanlıq salnaməsi idi

Prezident, Ali Baş Komandan İlham Əliyevin həmin müraciətində söylədiyi bu sözlər hər bir azərbaycanlının ürəyindən xəbər verdi, mübarizəyə və qələbəyə ruhlandırdı: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

Ermənistanda hökumətin qərarı ilə hərbi vəziyyət və ümumi səfərbərlik elan edildi. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlamalı oldu.

Prezident İlham Əliyev sentyabrın 28-də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 25-ci bəndini rəhbər tutaraq ölkəmizdə qismən səfərbərlik elan edilməsi barədə sərəncam imzaladı. Respublikamızda hərbi vəziyyət və komendant saatı elan edildi.

İkinci Qarabağ müharibəsi belə başladı. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev qismən səfərbərlik elan etdikdən dərhal sonra Azərbaycanın hər bir bölgəsindən minlərlə azərbaycanlı hərbi komissarlıqlara müraciət etdi.

Ürəyi həyat eşqi, tükənməz arzular, sonsuz ümidlə döyünən, bahar ömürlü gənclər Qarabağ və Şərqi Zəngəzuru Ermənistanın işğalından azad etmək üçün döyüşə yollandılar.

Azərbaycan Ordusunun hər bir əsgəri və zabiti öz gücünü bilirdi. Bilirdi ki, haqq uğrunda, ədaləti bərpa etmək, Vətən torpaqlarını yağılardan xilas etmək naminə döyüşür. Bilirdi ki, işğalçı düşmənin silahlı qüvvələri ilə müqayisə olunmayacaq qədər güclü və mükəmməl bir ordunun döyüşçüsüdür, daha çox peşəkardır, daha çox müasir silah-sursata, hərbi texnikaya malikdir. Bilirdi ki, Azərbaycan dövləti bütün gücü və əzmi, Azərbaycan xalqı bütün sevgisi ilə onun yanındadır. O, böyük zəfərə nəinki inanırdı, əmin idi. Odur ki, Qarabağın, Şərqi Zəngəzurun 30 ilə yaxın Ermənistanın işğal altında saxladığı hər qarış torpağı uğrunda qəhrəmanlıqla vuruşdu, şücaət göstərdi. O, İkinci Qarabağ müharibəsinin hər gününü, hər saatını qələbələrlə başa vuraraq böyük Zəfərə üz tutmuşdu...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Vətənə arxa, yurda dayaq igidlər

**Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşmuş, canlarından keçmiş şəhidlərimizin xatirələrini uca tutmaq, adlarını əbədiləşdirərək yaşatmaq, övladlarına, doğmalarına qayğı və diqqət göstərmək hər birimizin vətəndaşlıq borcudur. Çünki bu oğullar Vətəni ürəkdən sevdiklərinə görə öz həyatlarını, şəxsi mənafelərini xalq, millət, torpaq yolunda qurban veriblər. Qəlbləri ilə, döyüşkən ruhları ilə torpaqlarımızın azadlığı uğrunda hər an vuruşmağa, düşmənləri məhv etməyə hazır olublar.**





2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlandı. Vətənin qeyrətli oğulları heç bir çağırış gözləmədən yurdumuzun müdafiəsinə atıldılar. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın işğalda qalmış torpaqlarımızı düşməndən azad etdi. Qəhrəmanlıq tariximizə yeni səhifələr yazdı. Təəssüflər olsun ki, Vətənimizin azadlığı uğrunda gedən qanlı döyüşlərdə igid-igid oğullarımızı da itirdik. Bu rəşadətli oğullar son nəfəslərinədək cəsarətlə vuruşaraq gələcək nəsillərə nümunə olacaq qəhrəmanlıqlar göstərə-göstərə yurdumuzu işğaldan azad etdilər.

44 günlük Vətən müharibəsində bir evdən, bir ailədən iki qardaş - İman və Bəhrəm Məmmədzadələr də şəhid oldular. Onların keçdikləri qısa, amma şərəfli ömür yollarını vərəqləyəndə öyrəndik ki, böyük qardaş İman 1998-ci il sentyabrın 14-də, kiçik qardaş Bəhrəm 2000-ci il aprel ayının 18-də Lerik rayonunda dünyaya göz açıblar. Xəzər rayonu Binə qəsəbəsindəki 117 nömrəli orta məktəbdə oxuyublar. Hər ikisi ali təhsillərini Rusiyada alıblar. Qardaşlar çox vətənpərvər olublar, qoynunda dünyaya göz açdıqları Vətən torpaqlarını ürəkdən seviblər. Buna görə də qürbətdə də ölkəmizi layiqincə təmsil ediblər.

Şəhid atası Elman Məmmədzadə həmin xoşbəxt günlərdən söz açaraq dedi ki, uşaqların ikisi də kiçik yaşlarında idmana böyük maraq göstərirdi. İman ağır atletika, Bəhrəm isə cüdo ilə məşğul olurdu. Hər ikisi dəfələrlə iştirak etdikləri yarışlarda yaxşı nəticələr göstərərək medal və diplomlar qazanırdılar. Bir dəfə Bəhrəm iştirak etdiyi beynəlxalq cüdo yarışının finalında erməni rəqibini məğlub edərək birinci pilləyə çıxmışdı. Onun qələbəsi şərəfinə üçrəngli bayrağımız ucaldılmışdı. Həmin gün onun sevinci yerə-göyə sığmırdı. Ali təhsillərini başa vurduqdan sonra 2019-cu ildə oğullarım Vətənə qayıtmışdılar. Həmin ilin iyulunda övladlarım hərbi xidmətə çağırıldılar. İkinci Qarabağ müharibəsi başlayanda onların ikisi də xidmətdəydilər. Elə ilk günlərdən övladlarım torpaqlarımızın azadlığı uğrunda vuruşmağa başlamışdılar.

2020-ci il oktyabrın 27-də Qırmızı Bazar ətrafında gedən gərgin döyüşlər zamanı övladlarımın ikisi də şəhid oldu. Bir an belə bir-birindən ayrılmayan İman və Bəhrəm döyüşlərdə də ölümün gözünə dik baxıblar. Komandiri İmana deyib ki, siz iki qardaşsınız, bir-birinizi qorumalısınız. Oğlum ona cavab verib ki, burada yüzlərlə qardaşımız var, hamımız da torpaqlarımızın azadlığı uğrunda vuruşuruq. Bir-birimizi də qorumağa çalışırıq. Mənim üçün oğullarım haqqında keçmiş zamanda danışmaq çətindir. Yeganə təsəllimiz odur ki, övladlarım Vətən uğrunda şəhid olublar. Bəhrəmlə İman heç vaxt bir-birilərini tək qoymazdılar. Heç ölümün də onları bir-birindən ayırmağa gücü çatmadı. Təhsilləri də, xidmətləri də, döyüş yolları da, şəhidlikləri də bir oldu. Övladlarımla qürur duyur, həmişə onlarla fəxr edəcəm.

Şəhid atası Elman kişi söhbət zamanı İman və Bəhrəmin komandirləri ilə olan görüşünü də xatırladı. Dedi ki, komandirləri görüşəndə məni qucaqlayıb bağrına basdı. Söylədi ki, döyüşün gedişində Bəhrəmlə birlikdə mən də yaralandım. Güllə Bəhrəmin qolundan, mənim isə ayağımdan dəymişdi. Ona hospitala getmək tapşırılsa da, Bəhrəm qardaşı İmanı tək qoymayacağını demişdi. İlkin tibbi yardım göstərildikdən sonra döyüşə qayıtmışdı.

Anaları Hicran xanım kədər dolu səslə danışaraq dedi ki, Vətən üçün canını fəda edən iki qəhrəman oğul böyütdüyümə görə çox qürurluyam. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan övladlarım olduqca şərəfli bir ömür yaşadılar. Təskinliyi onunla tapırıq ki, düşmən üzərində Zəfərin qazanılmasında övladlarım da qan töküblər, can qoyublar, düşməni məhv ediblər. İnanıram ki, oğullarım döyüşlərdə göstərdikləri qəhrəmanlıqları ilə tariximizin səhifələrində əbədi yaşayacaqlar.






Kövrəldiyinə görə sözünə ara verən Hicran xanım artıq xatirəyə dönmüş rəsmlərdə və övladlarının şərəfinə salınmış guşədəki yadigar qalan əşyalara toxunaraq, onlardan rahatlıq tapdığını deyir: "Oğullarımla fəxr edirəm. Ömürlərinin bir hissəsini qürbətdə keçirdiklərinə baxmayaraq, həmişə Vətən sevgisi ilə yaşadılar, hər yerdə ölkəmizi uğurla təmsil etdilər. İstər təhsil ocağında, istərsə idman sahəsində, istərsə də döyüş meydanlarında üçrəngli bayrağımızı həmişə qürurla dalğalandırdılar. İman və Bəhrəm mehribanlıqları və tərbiyələri ilə valideynlərinə layiqli övlad, sədaqətləri ilə el-obaya gərəkli vətəndaş, igidlikləri və cəsarətləri ilə komandirlərinə və əsgər yoldaşlarına etibarlı silahdaş olaraq hər birimizin başını uca etdilər, qəhrəmanlıqları ilə adlarını əbədiləşdirdilər. İman və Bəhrəm bu gün tək mənim deyil, Azərbaycan xalqının şəhid övladlarıdırlar".

Daha sonra sözünə davam edən şəhid anası dedi ki, uşaqlar arasındakı sevgi və bir-birinə sıx bağlılıq bizi valideyn kimi həmişə qürurlandırırdı. Onların hər işdə bir-birilərinə dayaq olmaları bizə könül xoşluğu verirdi. Hətta telefon danışığı zamanı böyük oğlum İmandan "oğlu"nun (Bəhrəmi nəzərdə tutur) sözünə baxıb-baxmamasını soruşardım. Bəhrəmlə danışarkən "ata"nın (İmanı nəzərdə tutur) ona diqqət göstərib-göstərmədiyi ilə maraqlanardım. Son telefon danışığımız zamanı onlar dedilər ki, ana, şəhidlərimizi heç vaxt unutmayın. Biz həmin vaxt övladlarımın dediklərini o qədər də anlamırdıq. Amma indi oğullarımın nə demək istədiklərini yaxşı dərk edirik. Onların timsalında bütün şəhidlərimizlə qürur duyuruq. Bütün şəhid analarına demək istəyirəm ki, başlarını dik tutsunlar, məğrur dayansınlar, qamətlərini heç vaxt əyməsinlər. Ölkəmizdə şəhidlərimizə, onların adlarının əbədiləşdirilməsinə göstərilən diqqət biz valideynlərə böyük təsəlli verir.

İkinci Qarabağ müharibəsində göstərdikləri qəhrəmanlığa və igidliyə görə İman və Bəhrəm Məmmədzadə qardaşları Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunublar.

Vətən uğrunda canını qurban vermək insandan böyük fədakarlıq, cəsarət və şücaət tələb edir. Şəhidlər cəsarət və hünərləri ilə bunu bacardılar. Ölümün gözünə dik baxdılar. Buna görə də canları və qanları ilə xalqımıza Zəfər sevinci yaşadan oğullarımıza əbədi olaraq borcluyuq. Hamımız onların xatirəsinə yüksək ehtiram göstərməli, keçdikləri həm ömür, həm də döyüş yollarını dərindən öyrənməli və bu cəsur oğulları gələcək nəsillərə tanıtmalıyıq. Vətənə arxa, yurda dayaq olmuş oğulları heç vaxt unutmamalıyıq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Həmkarlarımız

**İş yoldaşımız, qələm dostumuz İradə Əliyeva hazırda məzuniyyətdədir. Bununla belə, qəzetin səhifələrindən imzası əskik olmur. Bu isə o deməkdir ki, o, işini, sənətini, çalışdığı "Azərbaycan" qəzetini çox sevir.**



# Jurnalist iradəsi

İradə xanım mətbuatda çoxdandır. O vaxtlar hər kəs jurnalist sənətini seçməyə cəsarət etməzdi. Xüsusilə də cəmiyyətdə mövcud olan "jurnalistlik qadın sənəti deyil" fikri qızların bu sahəyə gəlməsi üçün bir qədər çətinlik törədirdi. İradə Əliyeva bu stereotipləri qıran xanım jurnalistlərimizdən oldu. Göstərdi ki, xalqın və cəmiyyətin həyatında qadın yazarların qələminin "boyuna biçilmiş" bir çox mövzu var. Elə söz var ki, həssas qadın qəlbindən keçib gəldiyi üçün daha təsirli olur. Söhbət milli-mənəvi dəyərlərimizdən, gənc nəslin tərbiyəsindən, Vətən sevgisindən, torpaq təəssübkeşliyindən gedəndə ana səsi də ucalmalı - qadın-jurnalist də öz sözünü deməlidir. Kişi sözü kəsərlidirsə, qadının, ananın sözü də düşündürən, sirayətedəndir.

Amma nə qədər paradoksal olsa da, bəzən "jurnalistlik qadın sənəti deyil" deyənlərə haqq qazandırmaq istəyirsən. Çünki yaxşı jurnalist olmaq, ümumiyyətlə, çətindir. Üstəgəl, hər bir qadının üzərinə həyatda övlad böyütmək, evin istisini qorumaq kimi (şərəfli və xoş olsa da) ağır vəzifə düşür. Qısası, bir əlin qələmdə, o biri əlin isə evin, ailənin üstündə olması heç kəsə asan gəlməsin.

Sözümüzün canı odur ki, bizim İradə xanım bütün bunlardan keçib - üzərinə düşən hər iki mühüm vəzifəni layiqincə yerinə yetirib və həyat, sənət yollarında beləcə də irəliləməkdədir.

"Azərbaycan" qəzetinin Humanitar siyasət şöbəsinin redaktoru, Əməkdar jurnalist İradə Əliyeva ilə uzun illərdir iş yoldaşı, qələm dostuyuq. Keçdiyi həyat yoluna da, xasiyyətinə də, yaradıcılığına da yaxından bələdik. Əsil-nəcabətli xanımdır. İkinci Dünya müharibəsində biri ön, digəri arxa cəbhədə şücaət göstərmiş iki mətin insanın - Əbdül Zeynalovun və Cəmilə xanımın ailəsində anadan olub. Atası bir sıra məsul vəzifələrdə çalışıb. Sovet dövrünün ölçüləri ilə götürdükdə İradə xanım imkanlı ailədə böyüyüb. Amma buna baxmayaraq, həmişə zəhmətsevər olub. ADU-nun (indi BDU) Jurnalistika fakültəsində təhsil aldığı vaxt müəllimlər onun atasının yaxın tanışı olsalar da, İradə həmişə çalışqanlığı ilə seçilib və yaxşı oxuyub.

1977-ci ildə universiteti bitirib "Təşviqatçı" jurnalında əmək fəaliyyətinə başlayıb. Amma tezliklə ürəyinin hökmü ilə jurnalistikanın daha "qaynar" sahəsinə atılıb. Uzun illər "Azərbaycan müəllimi" qəzetində çalışıb. Bu qəzetdə peşəkar jurnalist kimi püxtələşib, gələcək yaradıcılığının əsas mövzularını müəyyənləşdirib. Azərbaycanın görkəmli alimləri, pedaqoqları, ziyalıları ilə həmsöhbət olub, mötəbər ictimai, mədəni, kütləvi tədbirləri bacarıqla işıqlandırıb.

1993-cü ildən İradə Əliyeva jurnalist taleyini "Azərbaycan" qəzeti ilə bağlayıb. 1997-ci ildən şöbə redaktorudur. Elə buradaca demək yerinə düşər ki, İradə xanım ona etibar edilən vəzifəyə həmişə məsuliyyətlə yanaşan, tapşırılan iş üçün cavabdehlik daşıyan insandır. Şöbənin əməkdaşlarına qarşı həm tələbkar, həm də qayğıkeşdir.

"Azərbaycan" onun qarşısında daha geniş yaradıcılıq imkanları açıb. İradə xanım bu imkanlardan səmərəli istifadə edərək mövzularını şaxələndirib. Qəzet səhifəsinə maraqlı yazılar gətirdikcə, aktual məsələlərə toxunduqca özünün də peşəkarlığı artıb.

Jurnalist İradə Əliyevanın mövzu dairəsi genişdir. Burada elmin, təhsilin, səhiyyənin, mədəniyyətin uğurları, perspektivləri, həlli vacib məsələləri, görkəmli ziyalıların, alimlərin, ədəbiyyat və incəsənət xadimlərinin həyat yolu öz əksini tapır. Xeyli vaxtdır repressiya qurbanları, deportasiyaya, qaçqın-köçkünlüyə məruz qalmış insanlar haqqında acı tarixi həqiqətləri qələmə alır. Onun eləcə də müxtəlif sahələrdə çalışan, fəal həyat mövqeyi tutan Azərbaycan qadınları haqqında silsilə yazıları var.

Uzun illər ərzində gördükləri və müşahidə etdikləri, oxuyub öyrəndikləri, axtarıb tapdıqları və yazdıqları indi İradə xanımın yaradıcılıq "mətbəx"ində kitablara çevrilməkdədir. Onun "Repressiyalar burulğanı", "Qadınlarımız... bənzərsiz dünyamız", "Repressiya qurbanı: Teymur Salahov", "Qəhrəman kimi döyüşdü, qəhrəman kimi həlak oldu" (akademik Ziya Bünyadova həsr olunub), "İllərim sərvətimdir" və neçə-neçə digər kitabı oxuculara yaxşı tanışdır. "Repressiyalar burulğanı" kitabını genişləndirilmiş və təkmilləşdirilmiş halda rus dilində də dərc etdirib. "Bəşir bəy Aşurbəyov və zəmanəsi" kitabı isə son illərdə işıq üzü görsə də, əslində, uzun müddətdir aparılan tədqiqatın nəticəsidir.

Bütün bunları İradə Əliyeva həftədə altı dəfə çıxan, illik səhifələrinin sayını tən böləndə isə az qala hər günün payına bir nömrəsi düşən rəsmi dövlət qəzetində zəhmət və qayğı dolu jurnalist həyatı yaşaya-yaşaya araya-ərsəyə gətirib. Və bütün bunlarla yanaşı, İradə xanım böyük bir ailənin anasıdır, iki oğul övladını layiqincə böyüdüb boya-başa çatdırıb, indi xoşbəxt nənədir.

Jurnalist, publisist həmkarımızın qələmi bir gün də əlindən düşmür. Əgər desək ki, "Azərbaycan"ın az qala hər nömrəsində onun imzasına rast gəlmək olar, təbii ki, oxucular bunu inkar etməyəcəklər.

Son 5 ilin olayları İradə Əliyevanın yaradıcılığına yeni mövzular bəxş edib. Möhtəşəm qələbələr və misilsiz quruculuq işlərinə aid mövzulardır bunlar. "Müzəffər Komandan" kitabı da məhz bu ovqatla qələmə alınmış yazıların toplusudur. Bu yazılar davam edir. Onlar hər gün gördüyümüz, zəhmət və axtarışlarına şahid, sənət sevgisinə və məsuliyyətinə bələd olduğumuz iş yoldaşımızın qələmindən çıxır. Yoldaş demişkən, İradə xanım bir dost, yoldaş, həmkar kimi də həmişə bizimlədir. Xoş sözü, ağıllı məsləhəti, bir sözlə, bacardığı, əlindən gələni edə bilməsi ilə...

Bu yazı ilə biz - "Azərbaycançı"lar İradə xanımı 70 illiyi münasibətilə təbrik edir, ona cansağlığı, uzun ömür, yaradıcılıq uğurları diləyirik.

*"Azərbaycan"*

# Yay ilə vida, payızla görüş...

## Azərbaycanın turizm palitrasında mövsüm dəyişikliyi



**Yayın qızmar günəşindən doymuş torpaq artıq dincəlmək istəyir. Dənizin şıltaq ləpələri sahillə pıçıldaşaraq vidalaşırlar. Dağlar yerli səyahətçilərin, əcnəbi turistlərin ayaq səslərini yaddaşında saxlayaraq susur. Gözəl ölkəmizin səfalı guşələrində bir fəsil arxada qalır, onun yerini sarı, narıncı, qırmızı boyalarla rənglənmiş payız tutur. Hər fəslin öz hekayəsi, öz musiqisi var. Əgər yay sevincin simfoniyasıdırsa, payız düşüncənin və dincliyin melodiyasıdır.**

Azərbaycanda yay turizm mövsümü rəsmi olaraq iyun ayından etibarən başlayır və sentyabrın ortalarınadək davam edir. Ötən müddət ərzində ölkənin dənizkənarı kurort bölgələri olan Nabran, Lənkəran, Şüvəlan və Bilgəh kimi sahil zonaları yüzlərlə turistə qucaq açıb. Dağlıq zonalarda isə yaylaqlar, ekoturizm marşrutları, kampinq turları fəal şəkildə həyata keçirilib. Məlumat üçün bildirək ki, kampinq turları insanların şəhərdən uzaq, təbiət qoynunda, yəni dağlarda, meşələrdə, göl və ya çay kənarında keçirdiyi səyahət növüdür. Bu turlar zamanı iştirakçılar çadır qurur, açıq havada gecələyir, yemək bişirir, gəzintiyə çıxır və ulduzları izləyirlər. Bəzən yataq tulumlarından, portativ sobalardan (daşınan, yüngül və adətən, kiçik ölçüdə olan soba) və od qalamaq üçün vasitələrdən istifadə olunur. Kampinq istirahət və macəra sevənlər üçün ideal seçimdir.

İndi isə yay yavaş-yavaş geri çəkilir. Günəş öz gücünü itirib, yorğun görünür. Mövsümün son akkordları da astadan səslənir, sanki təbiət özü ilə bir vidalaşma konserti verir. Meşələrin yaşıl donu solur, dağ yolları saralır, sərin meh qızılı rəngli yarpaqlara ehmalca toxunaraq onların budaqdan ayrılıb yerə düşməsinə kömək edir. Təbiət ahəstə-ahəstə payızın dərin, düşüncəli nəfəsinə köklənir. Bu, sadəcə turizm ritminin dəyişməsi, ovqatın köklənməsi, təbiətlə dialoqun yeni mərhələyə keçməsi deməkdir. Əgər yay fəslində turizm səsli-küylü, enerjili və hərəkətli idisə, payız turizmi sakitliyin, müşahidənin, dərin hisslərin təbiətlə səssiz söhbətidir. Yay turistləri günəşin arxasınca qaçırdısa, payız turistləri sarı, qızılı rəngli yarpağın düşməsini izləyirlər. Bu turizm öz cazibəsini təbiətin rəngarəngliyindən, kənd həyatının ləzzətindən və mədəni tədbirlərin canlanmasından alır. Mövsümün üzüm yığımı, nar festivalları, bal bayramları və bölgələrdə keçirilən yarmarkalar yerli və xarici turistlər üçün unikal tamaşa, zövq və sosial-mədəni tanışlıq fürsətinə çevrilir.

Payız təbiətin ikinci nəfəsidir. Yarpaq səpələnmiş cığırlarla gəzmək, dağların dumanlı sabahına oyanmaq, kənd evində samovar çayı içərək mürəbbələrin tamını dadmaq Azərbaycanın payız mənzərəsində gizlənmiş poetik tablodur. Bu fəsildə zaman sanki ləngiyir. Təbiət bizi tələsdirmir, əksinə, hər addımda dayanıb baxmağa, düşünməyə vadar edir. Saralmış ağaclar altında uzanan səssiz yollar, duman içində itən dağ silsilələri və sobada bişən milli və klassik yeməklər Azərbaycanın payız mənzərəsinə naxış vuran duyğulardır. Burada hər daş, hər yarpaq, hər çay bir hekayə danışır. Bu hekayəni dinləyən adam üçün payız ruhun istirahət məkanına çevrilir. Yayın səs-küylü insanlarından fərqli olaraq payız mövüsmünün turistləri daha çox sakitliyə, təbiətlə tək qalmağa və yerli mədəniyyətlə yaxından tanış olmağa üstünlük verirlər. Onlar ucqar dağ kəndlərinə yol alır, meşə cığırlarında gəzintiyə çıxır, kənd evlərində qonaq olur, samovar çayı içib xəyala dalmağı sevirlər. Bəziləri üçün bu bir növ "detoks" turudur, necə deyərlər, texnologiyadan, şəhərin hay-küyündən və gündəlik stresdən uzaqlaşmaq üçün bir fürsətdir. Bir başqaları üçünsə foto, yürüş və ya kampinq kimi fəaliyyətlərlə təbiəti yaxından tanımaq istəyidir. Amma istisnasız olaraq, hər kəs Azərbaycan payızının ruhu ilə qarşılaşır. Bu ruh hər daşda, hər yarpaqda, hər çayın axarında bir hekayə danışır.

Gəlin elə bu düşüncələrlə siz də səfərə çıxın. Fotoaparatınızı, yaxud telefonunuzu unutmamaq şərtilə çantanıza isti bir şərf, pencək qoyub macəra həvəsi ilə yola düşün. Amma yolunuz hara olacaq? Sizcə, hansı səmtə üz tutsanız payızın romantikası ilə üz-üzə gələcəksiniz? Əgər saralmış və qızılı rəngli yarpaqlar, dağ mehi ilə dolu səssiz yer axtarırsınızsa, demək ki, istiqamət bəllidir. Bu, qızılı yarpaqlar şəhəri Qəbələdir - Azərbaycanın payız xəritəsində gəzməyə dəyən gözəl diyar. Qəbələyə payız səssiz, lakin yaddaqalan, ovqatı dəyişən, ruhu oyadan yağış kimi gəlir. Tufandağın ətəkləri sarı və narıncı rəngə boyandıqca, Qəbələnin meşə zolaqları nağıllardakı sehrli ağacları xatırladır. Nohur gölünün üzərində duman süzülür, sanki təbiətin nəfəsi suya yazılır. Göl kənarında gəzinti, dağ havasında bir fincan qəhvə və ya kənd evində təndirdə bişmiş isti çörək… Bu sadə, amma yaddaqalan anlar Qəbələnin payızını əvəzolunmaz edir.

Qəbələnin qızılı səssizliyindən sonra bir qədər qərbə tərəf yön alın. Sizi Şəkinin tarix qoxuyan küçələri və yarpaqla örtülmüş karvansara həyəti qarşılayacaq (Məlumatlara görə, bir vaxtlar Şəkidə 6 karvansara fəaliyyət göstərib. Ümumilikdə 5000 nəfər qonağı qəbul edib yüksək səviyyədə xidmət göstərən bu karvansaralar illər, əsrlər ötdükcə ya öz fəaliyyətini dayandırmalı olub, ya da iş funksiyasını dəyişdirərək başqa məqsədlər üçün istifadə olunub. Yaxşı haldır ki, həmin karvansaralardan ən gec inşa edilənlərdən biri hələ də fəaliyyət göstərir və getdikcə daha geniş perspektivə istiqamətlənir). Burada payız sanki əsrlərin üstündən süzülüb gəlir - karvansaranın daşlarına düşən yarpaqlar kimi. Şəki payızda bir başqa səssizliyə bürünür, Xan Sarayında tarix danışır. Şəki paxlavasının dadı payız meyvələrinin təbii şirinliyi ilə tamamlanan bir şəhərdir bura.

Dağların sükutu ilə vidalaşıb şimal tərəfə getməkdən çəkinməyin, Quba və Nabranın payız nəfəsi ilə dolu bağlarına, meşələrinə və çay kənarlarına doğru istiqamət götürün. Quba alma festivalı, həm yerli sakinlərin, həm də turistlərin maraqla gözlədiyi hadisələrdəndir. Hər növ alma, mürəbbə, meyvə şirəsi və təbii kənd məhsulları bu tədbirdə təqdim olunur. Turistlər həmin nemətlərdən dadaraq, yaşadığı ənənəvi kənd evlərində bu məhsulların necə hazırlandığını öyrənir. Nabranda isə nar və şaftalı bağları öz ləzzətini bölüşmək üçün səbirsizlənir. Burada payız başqa cür nəfəs alır, təbiət dənizə toxunur. Xəzərin sahilində yerləşən bu bölgə meşə və dəniz mənzərələrini birləşdirən nadir məkandır. Xudat və Nabran meşələri payızda öz mistik görkəmi ilə seçilir: yarpaqlar ayaqlar altında xışıldayır, dəniz qırağında isə külək dalğalara hansısa bir sirri pıçıldayır. Sakitliyin, dərin nəfəsin və uzaq baxışların məkanıdır bura...

Meşə və dəniz ətirli Nabrandan sonra sizi daha sakit, daha dərin bir payız ovqatı ilə qarşılayacaq Qax və Zaqatalaya gedin. Hər iki rayonda keçirilən bal yarmarkaları, arıçılıq turları və dağ kəndlərinə ekskursiyalar payızın xüsusi hadisələrindəndir. Burada turistlər təbiətin sakitliyində həm dincəlir, həm də Azərbaycanın təbii məhsullarının dadına baxırlar. Kəndlərdə gəzinti və ya isti corablarla soba yanında oturmaq turistin hafizəsində dərin iz buraxır. Səhər açılmamış gecədən başlayan yağışın səsinə oyanıb dumanlı dağa baxmağı, yağışın altında yüngülcə islanmağı, üşüyüb evə girmək istərkən tanımadığın bir nənənin sənə verdiyi pendir və təndir çörəyini təsəvvür edin. Bu duyğular pulla ölçülmür, yaşanır.

Bu yazıda biz nə rəsmi statistikaya, nə də soyuq faktlara üz tutduq. Könlümüzü payızın səssiz sehrinə, təbiətlə insan arasında qurulan incə duyğu körpüsünə verdik. Hər addımda səyyahın qəlbində titrəyən hisslərə, saralmış yarpaqların pıçıltısında gizlənən romantik ovqata kökləndik. Çünki bəhs etdiyimiz mövzu sadəcə rəqəmlərlə ölçülə bilməz. Payız turizmi insanın təbiətlə ünsiyyətə girməsi, özünə qayıtması, sakitlikdə dincəlməsi deməkdir. Rəqəmlər bəlkə bir gün unudular, amma bir payız səhərində içilən samovar çayının dadı, yarpaq səpələnmiş bir meşə cığırında çəkilən foto, sükut içində eşidilən dağ çayının səsi yaddaşlarda silinməz izlər qoyur. Gəlin bu payız telefonlarımızı bir az kənara qoyub, gözlərimizlə görək. Gözəllik bəzən olduğu yerdə deyil, onu görən baxışlarda doğulur. Azərbaycanın payızı məhz o baxışlarıı doğuran fəsildir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Payızın melodiyası: yağışın pıçıltısı, yarpaqların xışıltısı

**Payız təbiətin ən duyğusal fəslidir. Gətirdiyi rənglər, səslər və hisslər insanın daxili dünyası ilə birləşərək özünəməxsus bir harmoniya yaradır.**













Yayın gurultulu günlərindən sonra payız bir növ sakitlik çağırışı kimidir. Havanın sərinləşməsi, günlərin qısalması, payızı daha da gözəlləşdirən narın-narın yağan yağışlar, dumanlı səhərlər, saralan yarpaqlar insanı düşüncələrə qərq edir. Bu fəsil rəngləri ilə insan psixologiyasına təsirsiz ötüşmür. Yağan yağışlardan sonra xəzəllər arasından boylanan təzə-tər otların yam-yaşıl görüntüsü baharı, göy üzünü örtən boz buludların yaratdığı alaqaranlıq qışı xatırladır.

Həm bu bolluq fəsli sayılan payızda günəş işığının azalması ilə orqanizmdə serotonin səviyyəsi düşür, nəticədə insan özünü daha yorğun, daha kefsiz və bəzən də kədərli hiss edə bilər. Əslində, bu, təbiətin ritmlərinə uyğun bir dəyişiklikdir. Ağaclar yarpaqlarını tökür, hava sərinləyir və insan da bu dəyişikliklərdən təsirlənir. Beləcə, payız sehri insanı öz içinə baxmağa, daxili dünyasını daha dərindən dərk etməyə imkan yaradır.

Bununla belə, təbiət gəzintilərinin psixoloji təsiri payızda özünü daha qabarıq göstərir. Rəngbərəng yarpaqların arasından keçmək, meşə yollarında xəzəlin üstündə xışıltı ilə addımlamaq, sərin küləyin gətirdiyi torpaq və nəm qoxusunu duymaq insan beynində "xoşbəxtlik hormonları"nı artırır. Bu sadə gəzintilər gündəlik stresi azaldır, insanı sakitləşdirir və düşüncələrini yüngülləşdirir. Bir çox psixoloq payızda təbiətlə daha çox ünsiyyətdə olmağı məsləhət görür. Çünki payız təbiəti insanı həm ruh, həm də emosional baxımdan balanslaşdırır.

Yağışın səsi payızın ən böyük sehrlərindən biridir. Damların üstünə, pəncərəyə və ya torpağa düşən damcıların ritmik ahəngi sanki təbiətin musiqisidir. Bu "musiqi" beyinə sakitləşdirici siqnal göndərir, ürək döyüntüsünü yavaşladır, gərginliyi azaldır. Bir çox insanın yağışın səsinə qulaq asarkən yüngülləşməyi də bu səbəbdəndir. Yarpaqların xışıltısı da eyni təsirə malikdir. Xışıltının monotonluğu və təbiiliyi zehni rahatladır, sanki bütün gərginlik xəzanla birlikdə torpağın qucağına axıb gedir.

Payız həyat tərzinə də təsir edir. İnsanlar bu fəsildə daha çox evə çəkilir, özü üçün yuvasında sakit mühit yaradır, ailə ilə birlikdə vaxt keçirməyə meyillənir. Bayırda yağış yağarkən evdə isti bir mühit qurmaq, ailə ilə söhbət etmək və ya sakit bir musiqi ilə dincəlmək payızın gətirdiyi xüsusi bir zövqdür.

Eyni zamanda payız yaradıcı insanlar üçün ilham mənbəyidir. Ədəbiyyatda və incəsənətdə payız həmişə simvolik məna daşıyıb: hicran, vüsal, eyni zamanda gözəllik və təmizlik. Şairlər payızın sarı yarpaqlarını, boz səmasını və göz yaşına bənzəyən yağış damlalarını insan ruhunun güzgüsü kimi təsvir ediblər. Rəssamların da ən gözəl rəsmləri payız peyzajlarıdır. Bu fəsil həm kədəri, həm də ümidi bir arada yaşadır.

Bütün bunlar bir daha sübut edir ki, payız insanın psixologiyası və həyat tərzinə təsirsiz ötüşmür. O üzdən hər fəsli olduğu kimi qəbul etmək, onun gətirdiyi səsləri, rəngləri və qoxuları duymaq lazımdır. E.Ryazanovun məşhur bir filmindəki mahnıda deyildiyi kimi, "Təbiətin pis havası yoxdur". Sadəcə qəbul etmək yetər ki, payızda təbiət öz libasını dəyişsə də, o, insana daxili təmizlənmə, yüngüllük və yenilənmə bəxş edir. Yağışın pıçıltısı, yarpaqların xışıltısı və təbiətin sakitliyi insanı həyatın dərinliyini anlamağa çağırır.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***




# Möhtəşəm Azərbaycan Qran-prisi başa çatdı

## Bakı 2030-cu ilədək "Formula-1"ə evsahibliyi edən şəhərlər sırasındadır







**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisi başa çatdı. Azərbaycan sayca 9-cu dəfə bu möhtəşəm yarışa uğurla evsahibliyi etdi. Dünya növbəti dəfə azərbaycanlıların mehribanlığına, qonaqpərvərliyinə, ölkəmizin qədim tarixinə, füsunkar təbiətinə, mentalitetinə şahidlik etdi.**

Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin mötəbər ünvanına çevrilən Bakı növbəti beynəlxalq tədbirə layiqincə evsahibliyi etməklə dünyanın diqqət mərkəzində oldu. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə gördü. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıtdı.

Sentyabrın 19-da başlayan yarışların sonuncu günü həyəcanlı keçdi. Sentyabrın 21-də Qran-prinin açılış mərasimi baş tutdu. Mərasim Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başladı. Açılışdan sonra "Formula-1" Azərbaycan Qran-prisi 2025 start götürdü. "Formula-1" yarışında hər biri iki pilotdan ibarət 10 komanda mübarizə apardı. Sürücülər qalibi müəyyənləşdirmək üçün Bakı Şəhər Halqasında iki saat ərzində 51 dövrə vurdular.

Uzunluğu 6 kilometr olan və hərəkətin saat əqrəbinin əksinə nizamlandığı trek məşhur almaniyalı memar Hermann Tilke tərəfindən hazırlanıb. Azadlıq meydanından başlayan trek Hökumət Evinin ətrafı ilə fırlanaraq Qız qalasına çatmaq üçün İçərişəhər ətrafında 2,2 kilometr dairə vurur və Neftçilər prospektinə çıxaraq başlanğıc yerində sona çatır. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsi isə İçərişəhər ətrafında olan hissələrində, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

İki saata yaxın davam edən gərgin idman mübarizəsinin sonunda "Red Bull" komandasının niderlandlı pilotu Maks Ferstappen Qran-prinin qalibi oldu. Corc Rassell ("Mercedes") ikinci, Karlos Saynz ("Uilliams") üçüncü oldular. Sonra "Formula-1" Azərbaycan Qran-prisinin qaliblərinin mükafatlandırılması mərasimi keçirildi. Əvvəlcə qalib idmançının və komandanın şərəfinə müvafiq olaraq, Böyük Britaniya və Niderlandın Dövlət himnləri səsləndirildi. Mükafatları Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin baş direktoru Maqsud Fərzullayev təqdim etdilər.

Xatırladaq ki, builki dünya çempionatına martın 14-16-da Avstraliya Qran-prisi ilə start verilib. Sonrakı mərhələlər Çin, Yaponiya, Bəhreyn, Səudiyyə Ərəbistanı, ABŞ (Mayami), İtaliya (İmola), Monako, İspaniya, Kanada, Avstriya, Böyük Britaniya, Belçika, Macarıstan, Niderland, İtaliyada (Monza) təşkil olunub. Yarışlara dekabrın 6-8-də Əbu-Dabidə yekun vurulacaq.

Beləliklə, 17 Qran-pridən sonra pilotların siyahısında "McLaren"də çıxış edən Oskar Piastri 324 xalla liderdir. Onun komanda yoldaşı Lando Norris 299 xalla ikinci, Maks Ferstappen 255 xalla üçüncüdür. Konstruktorlar Kubokunda isə sıralamaya 623 xalla "McLaren" komandası başçılıq edir. "Mercedes" 290 xalla ikinci, "Ferrari" 286 xalla üçüncü sırada yer alıblar. Sonrakı pillələrdə "Red Bull" (272), "Uilliams" (101), RB (72), "Aston Martin" (62), "Kick Sauber" (55), "Haas" (44), "Alpine" (20) komandaları qərarlaşıblar.

Beləliklə, qarşıya qoyulmuş vəzifə - idman tədbirinin tələb olunan səviyyədə təşkili və onun iştirakçılarının ədalətli mübarizə aparması üçün lazımi şəraitin yaradılması uğurla icra olundu. Bakı Şəhər Halqası əməliyyat şirkəti əlaqədar dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində idman tədbirini ən yüksək səviyyədə təşkil etdi, "Formula-1" komandalarının və yarışı televiziya ilə izləyən yüz milyonlarla motoidman azarkeşinin rəğbətini qazandı.




Mübaliğəyə varmadan demək olar ki, Azərbaycanda Qran-prinin təşkili təqdirəlayiq idi. Bütün bunların nəticəsidir ki, yeni anlaşmaya əsasən, Azərbaycan 2030-cu ilədək "Formula-1"ə evsahibliyi edən ölkələr sırasında olacaq.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*





# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 202 (9947) 21 sentyabr 2025-ci il BAZAR
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan ilə Ruanda yaxşı tərəfdaş və dostlardır
Ruanda Respublikasının Prezidenti Pol Kaqame Azərbaycana rəsmi səfərə gəlib
Zəfərin taclandırdığı suverenlik
Müzəffər Ali Baş Komandanla xalqın birliyi, milli iradənin təcəssümü
Milli qürurun, dövlət iradəsinin təntənəsi
Birinci vitse-prezident Mehriban Əliyeva Dövlət Suverenliyi Günü münasibətilə paylaşım edib
O gün keçirdiyimiz hisslər unudulmazdır
Tarixi Zəfərdən sonrakı reallıq
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Dünya liderləri BMT Baş Assambleyasının 80-ci sessiyasına toplaşırlar

**Bu gün Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası işə başlayır. Bu, BMT-yə üzv olan bütün dövlətlərin liderlərinin öz prioritetlərini təqdim və əsas qlobal məsələləri müzakirə etdikləri ən böyük beynəlxalq diplomatik tədbirlərdən biridir.**



Sentyabrın 29-dək Nyu Yorkda BMT Baş Assambleyasının 80 illik yubileyinə həsr olunmuş 80-ci sessiyası "Birgə işləmək: Sülh, İnkişaf, İnsan Haqları naminə 80 il birlikdə çalışmaq və irəliyə doğru yol" mövzusunda keçiriləcək.

Sessiyanı BMT-nin Baş katibi Antonio Quterreş açacaq. Almaniyanın keçmiş xarici işlər naziri Annalena Berbok 80-ci sessiyaya sədrlik edəcək.

BMT Baş Assambleyasına 150-yə yaxın dövlət və hökumət başçısının, eləcə də çox sayda nazirlərin, vitse-prezidentlərin, diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin qatılacağı gözlənilir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sessiyada iştirak etmək üçün sentyabrın 21-də Nyu Yorka gəlib. Onun BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı sentyabrın 23-ü Bakı vaxtı ilə saat 19:00-a təyin edilib. Bu, Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında 15-ci çıxışı olacaq. Türkiyə liderinin çıxışında Yaxın Şərqdə yaranmış vəziyyətə diqqət çəkəcəyi gözlənilir.

Kanada, Avstraliya, Böyük Britaniya və Portuqaliya BMT Baş Assambleyasının 80-ci sessiyasının açılışı ərəfəsində Fələstin dövlətini tanıdıqlarını elan ediblər. ABŞ Dövlət Departamenti isə Fələstin Prezidenti Mahmud Abbas və onu müşayiət edən rəsmilərə Baş Assambleyada iştirak etmək üçün viza verməyib. Bununla bağlı Fələstin liderinin videobağlantı vasitəsilə qarşıdakı sessiyada çıxış edəcəyi gözlənilir.

İsrailin Baş naziri Benyamin Netanyahunun sentyabrın 26-da BMT Baş Assambleyasında çıxışı planlaşdırılıb.

Əhməd əl-Şara 1967-ci ildən bəri Assambleyada çıxış edən ilk Suriya Prezidenti olacaq. Onun BMT Baş Assambleyasının tribunasından çıxışı sentyabrın 24-nə təyin edilib.

Ukraynadakı müharibə ilə yanaşı, digər ciddi münaqişələr və böhranlar, o cümlədən Sudan, Livan, Yəmən və Haitidəki vəziyyət BMT Baş Assambleyasının və ikitərəfli görüşlərin əsas mövzuları olacaq.

Xatırladaq ki, 51 təsisçi üzvdən ibarət olan Birləşmiş Millətlər Təşkilatının ilk Baş Assambleyası 1946-cı ildə keçirilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 14-18, gündüz 20-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 0-4, gündüz 5-9 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-11, gündüz 18-23 dərəcə isti olacağı gözlənilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8, gündüz 10-15, bəzi yerlərdə 18-20 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcəkz. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8, gündüz 12-17, bəzi yerlərdə 19 dərəcə isti olacağı ehtimal edilir.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava ssasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-13, gündüz 19-24 dərəcə isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-12, gündüz 17-22, dağlarda gecə 2-6, gündüz 6-10 dərəcə isti olacaq.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16, gündüz 20-25 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-15, gündüz 17-22, dağlarda gecə 5-8, gündüz 11-14 dərəcə isti olacağı proqnozlaşdırılır.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin Hərbi qanunvericilik sektorunun müdiri Tamerlan Şeyx-Zamanova əzizi
**RAMİZ SÜLEYMANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4147
Sifariş 1934

Qiyməti 60 qəpik